RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 252 (8568) ÇƏRŞƏNBƏ, 2 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV

## Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın tarixi zəfəri ilə birdəfəlik həll olunduğunu bəyan etdi:




**Cəbrayıl bizimdir!**

**Füzuli bizimdir!**

**Zəngilan bizimdir!**

**Qubadlı bizimdir!**

**Ağdam bizimdir!**

**Kəlbəcər bizimdir!**

**Laçın bizimdir!**

**Şuşa bizimdir!**

**Qarabağ bizimdir!**

## QARABAĞ AZƏRBAYCANDIR!

# İlham ƏLİYEV: "Laçın bizimdir"

## Prezident İlham Əliyevin xalqa müraciəti



- Əziz həmvətənlər.

Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq.

Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir, ərazisi 1800 kvadratkilometrdir. Laçın rayonunun zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri bizim milli sərvətimizdir. Laçın rayonunun Azərbaycanın gələcək iqtisadi inkişaf işlərində mühüm rolu olacaqdır. İlk növbədə, biz Laçına laçınlıları qaytaracağıq. Əziz laçınlıları bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, gözaydınlığı verirəm. Laçın işğal olunanda bu rayonda təqribən 50 mindən bir qədər çox əhali yaşayırdı. İndi Laçın rayonunun əhalisi 80 min nəfərə çatıb. Əlbəttə ki, laçınlıları qısa müddət ərzində Laçına qaytarmaq bizim əsas vəzifələrimizdən biri olacaqdır. Həmçinin biz çalışacağıq ki, keçmiş məcburi köçkünləri işğaldan azad edilmiş bütün digər rayonlarımıza qısa müddət ərzində qaytaraq.

Əlbəttə, işğaldan azad edilmiş torpaqlarda mövcud olan mənzərə böyük çətinliklər yaradır. Çünki hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq. Bildiyiniz kimi, ilk layihələr artıq icra edilməyə başlanmışdır. Prezidentin Ehtiyat Fondundan müvafiq vəsait ayrılmışdır. Füzuli-Şuşa avtomobil yolunun, Bərdə-Ağdam dəmir yolunun tikintisi artıq başlanmışdır. Bu, onu göstərir ki, biz bu işləri maksimum səmərə ilə və eyni zamanda qısa müddət çərçivəsində planlaşdırırıq ki, vaxt itirmədən bütün işləri təşkil edək. Artıq müvafiq dövlət qurumu da yaradıldı və bu işlərin hamısı koordinasiya şəklində aparılacaqdır.

Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır.

Onu da bildirməliyəm ki, bizim böyük çayımız - uzunluğu 100 kilometrdən çox olan Həkəri çayının mənbəyi Laçın rayonundadır. Bu da böyük strateji əhəmiyyətə malik olan məsələdir. Deyə bilərəm ki, bizim 10-dan çox böyük və kiçik çayımızın mənbəyi işğaldan azad edilmiş torpaqlardadır. Onların arasında 4 çayı xüsusilə qeyd etmək istərdim. Çünki bu çayların uzunluğu 100 kilometrdən çoxdur. Tərtərçay 200 kilometr, Bazarçay 180 kilometrə yaxın, Xaçınçay 120 kilometrə yaxın - bu 3 çay Kəlbəcər rayonunda yerləşir. Həkəri çayı da böyük çaylarımızdan biridir, uzunluğu 100 kilometrdən çoxdur. Bunun çox böyük əhəmiyyəti var. Çünki Azərbaycan ərazisindən keçən bizim əsas çayların mənbələri başqa ölkələrdə yerləşir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim bu 3 əsas çayımızın mənbələri başqa ölkələrdə yerləşir. Əlbəttə ki, 4 böyük çayın mənbəyinin ölkəmizin ərazisində olması böyük üstünlüyümüzdür. Ancaq bu ərazilər işğal altında idi. İndi bu ərazilər işğaldan azad edilib. İşğaldan azad edilmiş torpaqların və orada həyatın bərpası üçün əlbəttə ki, çay resurslarımızın çox böyük əhəmiyyəti olacaqdır. Artıq müvafiq göstərişlər verilib və su anbarlarının tikintisi nəzərdə tutulur. Bu, özlüyündə kənd təsərrüfatının inkişafına, ekoloji tarazlığın təmin edilməsinə çox böyük təsir göstərəcək amillərdən biridir.

Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik və əminəm ki, buna nail olacağıq.

Laçın rayonunun strateji əhəmiyyəti eyni zamanda ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir.

Onu da bildirməliyəm ki, uzun illər ərzində - 30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə çox önəmli və ayrı bir mövzu kimi müzakirə olunurdu. Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Əfsuslar olsun ki, bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və demək olar ki, düşmən tamamilə azğınlaşmışdı. Bunun nəticəsində, məhz Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. İşğaldan azad edilmiş digər yerlərdə qanunsuz məskunlaşma baş verirdi, amma bu dərəcədə yox, bu həcmdə yox. Misal üçün, əgər Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarına baxsaq, orada daha çox hərbi hissələr yerləşirdi. Çünki orada bütün evlər, binalar mənfur düşmən tərəfindən dağıdılmışdı. Orada hərbçilər, onların ailə üzvləri yaşayırdı və çox az sayda mülki əhali yaşayırdı. Xaricdən gətirilən ermənilər oraya göndərilmirdi. Laçın rayonu isə artıq Ermənistan tərəfindən çox ciddi dərəcədə nəzarətə alınmışdı və orada çox böyük məskunlaşma proqramı icra edilmişdi. Orada minlərlə insan yaşayırdı və bəzi məlumatlara görə, bəlkə də 10 minə yaxın insan yaşayırdı. Yəni Ermənistan rəhbərliyində Laçın rayonunu Azərbaycana qaytarmaq fikri olmamışdır. Biz Laçın dəhlizi haqqında danışıqlar zamanı mövzulara toxunarkən həmişə həm Ermənistan, həm də onun havadarları qeyd edirdilər ki, yox, Laçın rayonu ayrı mövzudur. Birbaşa bizə deyilməsə də, belə bir fikir həmişə var idi ki, Laçın rayonu hansısa formada Ermənistana qalmalıdır.

Danışıqlar prosesi ilə əlaqədar onu da bildirməliyəm, - istəyirəm Azərbaycan xalqı bu məlumatı məndən eşitsin, - təsadüfi deyil ki, işğalda olan rayonların Azərbaycana qaytarılması məsələsi danışıqların mərkəzində yerləşirdi. Bu, bizim mövqeyimiz idi. Ancaq burada da mərhələli həll nəzərdə tutulurdu. Biz də bunun tərəfdarı idik. Birinci mərhələdə 5 rayonun Azərbaycana qaytarılması, ikinci mərhələdə isə Laçın dəhlizi istisna olmaq şərti ilə Kəlbəcər və Laçın rayonunun Azərbaycana qaytarılması. Ermənistan tərəfi hər dəfə məsələ qaldırırdı ki, əgər bu 7 rayon Azərbaycana qaytarılacaqsa, mütləq Dağlıq Qarabağın statusu eyni vaxtda öz həllini tapmalıdır. O başqa məsələdir ki, Ermənistan, sadəcə olaraq, danışıqlarda iştirak edərək imitasiya ilə məşğul idi və heç bir rayonu bizə qaytarmaq fikrində deyildi. Ancaq istənilən halda onların mövqeyi belə idi ki, 5 rayon qaytarıla bilər, amma Laçın və Kəlbəcər rayonlarının Azərbaycana qaytarılması üçün Azərbaycan Dağlıq Qarabağın müstəqilliyini ya tanımalıdır, ya da ki, orada keçiriləcək səsverməni tanımalıdır, səsvermə üçün tarix müəyyən edilməlidir. Dağlıq Qarabağa müstəqillik verilərsə, o zaman Ermənistan Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytaracaq, ancaq Laçın dəhlizi Ermənistana veriləcəkdi, özü də dəhlizin eni müəyyən edilməmişdi. Bax, bu idi danışıqlar masasında olan məsələlər.

Mən deyə bilərəm, bu 17 il ərzində dəfələrlə bizə müxtəlif yerlərdən, xarici dairələrdən belə siqnallar gəlirdi ki, indi beş rayonu alın, bununla da kifayətlənin. Siz müharibədə məğlubiyyətə uğramısınız, Ermənistan müharibədə, - Birinci Qarabağ müharibəsi nəzərdə tutulurdu, - qələbə qazanıb. Siz reallıqlarla razılaşın. İndi beş rayon ki, sizə vəd verilir, o da böyük şeydir, siz onu alırsınız, Laçın, Kəlbəcər də qalsın sonraya, siz nə vaxt müstəqillik versəniz Dağlıq Qarabağa, o vaxt da o rayonların bir hissəsi sizə qayıda bilər.

Mən isə həmişə deyirdim ki, Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qayıtmasa, heç bir razılaşma ola bilməz. Mənim mövqeyim xarici ölkələrdə bir çoxlarını qıcıqlandırırdı. Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq - həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq. Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək. Belə cəhdlər var. Bu cəhdlərin bir məqsədi var ki, bu razılaşma pozulsun. Çünki bu razılaşma bəzilərini çox qıcıqlandırır ki, artıq burada yeni təhlükəsizlik formatı yaranıbdır. Türkiyə-Rusiya Birgə Mərkəzinin yaradılması bəyanatda təsbit edilib. Eyni zamanda burada təhlükəsizlik tədbirlərinin görülməsi və Bəyanatın müddəalarının icra edilməsi bəzilərini qıcıqlandırır. Ancaq bizim işimizə, əldə edilmiş razılaşmaya heç kim müdaxilə edə bilməz. Razılaşma icra edilir və icra edilməlidir.

Bir daha demək istəyirəm ki, biz yeni reallıq yaratdıq, qələbə çaldıq, düşmənin başını əzərək, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq. Hər kəs bu reallıqla barışacaq, məcbur olub barışacaq, necə ki, Ermənistan barışdı. Bu bəyanatın altında Paşinyanın imzası var. Bunu o imzalayıb, məcbur olub. O, əslində, kapitulyasiya aktına öz imzasını qoyub. Ermənistan ya tamamilə məhv olacaqdı, ya da ki, imzalayacaqdı. Başqasının buna nə dəxli var? Hər kəs getsin öz işi ilə məşğul olsun.

Bölgəmizdə yeni reallıq yarandı. Bu reallığı biz yaratdıq. Azərbaycan yaratdı bu reallığı. Biz düşməni torpaqlarımızdan qovduq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Bu qətnamələr 27 il idi ki, kağız üzərində qalırdı. Bu qətnamələr 27 il idi ki, sadəcə olaraq, bir çoxları üçün kağız parçası idi, təkcə Ermənistan üçün yox, başqaları üçün də. Biz deyirdik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tələb edir, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Amma bunun nəticəsi olmadı. Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdik. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğala son qoyduq. Ümid edirəm ki, biz bölgədə bu gün və gələcək üçün yeni təhlükəsizlik, yeni əməkdaşlıq formatını təşkil etdik. Bu format nədən ibarət olacaq, bunu həyat göstərər. Hər halda biz bu yeni əməkdaşlıq formatının yaradılması üçün lazımi işləri gördük, öz torpaqlarımızdan düşməni qovduq və noyabrın 10-da imzalanmış Bəyanatda göstərilən məsələlər əgər bu gün öz həllini taparsa, onda bölgəmizdə yeni əməkdaşlıq çərçivələri yaradılacaqdır.

Ona görə Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir. Biz müharibə zamanı təqribən 5 min, 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik. Eyni zamanda təxminən bir o qədər - 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq. Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var. Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planlarımızın reallaşmasına müdaxilə edə bilərdi. Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm danışıqlar masasında və razılaşma yolu ilə. Mən deyəndə ki, məsələnin hərbi yolu var, bunu nəzərdə tuturdum. Əgər düşmənin başını əzməsəydik, o, heç vaxt öz xoşu ilə bu torpaqlardan çıxmazdı. Düşmən bu işğalı əbədiləşdirmək istəyirdi və onların bütün çirkin əməlləri bu məqsədi güdürdü. Laçın rayonuna da bir eybəcər erməni adı vermişdilər. Artıq yoxdur bu ad, zibil yeşiyinə atıldı bütün başqa eybəcər adlarla bərabər.

Laçın rayonunun işğal altına düşməsi böyük faciə idi. Mən bir daha demək istəyirəm ki, hər bir rayonun işğal altına düşməsi faciə idi. Amma Laçın rayonunun işğalı imkan verdi ki, artıq Ermənistan ilə Dağlıq Qarabağ arasında yol bağlantısı olsun. 1992-ci ilin may ayında Şuşanın işğalından bir neçə gün sonra Laçının işğal altına düşməsi böyük itkimiz idi. Artıq Ermənistan bu dəhliz vasitəsilə silah-sursat, canlı qüvvə göndərirdi. Əlbəttə ki, bu, böyük itkilərə gətirib çıxardı. Ondan təxminən bir il sonra Kəlbəcər rayonu işğal altına düşdü.

Demək olar ki, bütün bunlar sonrakı işğal üçün zəmin yaratdı. Onu da bir daha demək istəyirəm ki, Laçın rayonu işğala məruz qalanda Bakıda hakimiyyət uğrunda mübarizə gedirdi. Bu mübarizəni aparanlar Laçını, Şuşanı, Kəlbəcəri düşmənə satdılar, demək olar ki, Azərbaycan dövlətçiliyini uçurum kənarına qoydular. Biz bütün bu tarixi yaxşı xatırlayırıq. Bu gün Laçın rayonunu bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad etmək böyük qələbəmizdir.

Mən bir daha demək istəyirəm, - artıq onu demişəm, - onsuz da biz Laçını da, Kəlbəcəri də, Ağdamı da alacaqdıq. Bizim planlarımız var idi və biz ardıcıl şəkildə bu planlara doğru gedirdik. Ancaq hər kəs bilməlidir ki, Kəlbəcər və Laçın rayonlarının çox çətin relyefi var. Kəlbəcər rayonuna əvvəlki, sovet dövründə gedən yol Ağdərə rayonundan keçirdi. Sovet vaxtında bu rayona Mardakert deyilirdi, orada ermənilər yaşayırdı. Başqa yol demək olar ki, yox idi. Biz indi Kəlbəcərə Göygöl və Daşkəsən rayonlarından daxil olmuşuq. Xüsusilə qış mövsümünü, çətin relyefi nəzərə alsaq böyük itkilərimiz ola bilərdi. Həm Ağdam, həm Laçın, həm Kəlbəcər rayonlarının azad edilməsi işində böyük itkilərimiz ola bilərdi və böyük vaxt sərf olunacaqdı.

Ona görə bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar Azərbaycan vətəndaşlarıdır. Mən bir daha demək istəyirəm, onlar görəcəklər ki, vahid Azərbaycan dövləti çərçivəsində onların yaşayışı yaxşı olacaq. Onlar bu səfalətdən canlarını qurtaracaqlar. Baxın, biz indi Bərdədən Ağdama dəmir yolu çəkirik. Ağdamdan Xankəndiyə məsafə 20-30 kilometrdir. Amma Ermənistan paytaxtından Xankəndiyə gəlmək üçün neçə saat vaxt sərf etmək lazımdır - yük maşınları ilə bəlkə də on saat. Özü də çətin dağ yolları ilə. Ağdamdan isə Xankəndiyə yarım saat.

Bu, gələcək perspektivlərimizi diktə edəcək. Ona görə biz buna hazır olmalıyıq və öz strategiyamızı, öz taktiki addımlarımızı elə atmalıyıq ki, bundan sonra bu bölgədə bir dənə də təhlükə mənbəyi olmasın. Əlbəttə ki, bunun qarantı Azərbaycan Ordusudur. Əgər bu bölgənin coğrafiyasına hər kəs baxsa görər ki, bu gün Ermənistanı Dağlıq Qarabağla 5 kilometr enində dəhliz birləşdirir.

Bu gün Dağlıq Qarabağda yaşayan ermənilər və mütləq oraya qayıdacaq azərbaycanlılar gün gələcək yenə yaxşı qonşuluq şəraitində yaşayacaqlar. Burada logistik məsələlər var, nəqliyyat məsələləri var, enerji təhlükəsizliyi var. Biz bütün bu məsələləri nəzərdən keçirəcəyik. Ermənistan rəhbərliyindən fərqli olaraq, bizim strateji baxışlarımız var, bunlar artıq formalaşıb. Biz məqsədə çatmaq üçün ardıcıl surətdə gedirik. Ermənistan rəhbərliyinin hətta Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir baxışı yox idi. Onlar özləri bilmirdilər nə istəyirlər. Gah deyirdilər ki, Dağlıq Qarabağ "müstəqil dövlət"dir. Gah deyirdilər ki, "Dağlıq Qarabağ Ermənistan"dır. Bu təzadlı fikirlər bir-biri ilə necə uzlaşa bilər? Bu, nəyi göstərir? Onu göstərir ki, Ermənistan rəhbərliyi savadsız, siyasətdən başı çıxmayan insanlardan ibarətdir. Yaxşı, bu, müstəqil dövlətdirsə, onda sənin ordun orada nə iş görür? Əgər bu, müstəqil dövlətdirsə, - hansı ki, heç kim tanımayıb, elə birinci Ermənistan tanımayıb, - o necə ola bilər ki, Dağlıq Qarabağ Ermənistanın baş nazirinin sözləri ilə desək, "Ermənistandır və nöqtə". Ona görə onların bu məsələ ilə bağlı da açıq-aydın fikri yox idi. Bu idi bizim qarşımızda duran ölkə.

Əlbəttə, biz bir daha görürük və artıq işğaldan azad edilmiş torpaqlarda olarkən bir daha gördüm ki, onlar bizə bir santimetr də torpaq qaytarmaq istəmirdilər. Əkstəqdirdə o istehkamları qurmazdılar. Onlar əbədi saxlamaq istəyirdilər o torpaqları. Ona görə o saxta xəritələri düzəldirdilər. Ona görə bizim şəhərlərimizə öz adlarını verirdilər. Ona görə xaricdən erməniləri gətirib oraya yerləşdirirdilər. Hərbi cinayət törədirdilər və cavab verəcəklər bütün cinayətlərə görə. Artıq işlər praktiki fazaya keçibdir. Qiymətləndirmə prosesi tezliklə başlanacaq, vurulmuş ziyan hesablanacaq. Artıq hüquqi müstəvidə addımlar atılır. Mən bunu artıq bildirə bilərəm Azərbaycan xalqına. Hələ ki, detalları açmaq istəmirəm. Amma bu, artıq niyyət deyil, bu, artıq praktiki addımlardır. Biz onları bundan sonra da ifşa edəcəyik.

Azad edilmiş torpaqlara xarici jurnalistlər dəvət olunur. Beynəlxalq media erməni vəhşiliyinin nəticələrini işıqlandırır. Bu müddət ərzində Kəlbəcəri nə günə qoyduqlarını işıqlandırır. Vəhşilər kimi gedib hər tərəfi söküb, yandırıb, talayıb, meşələri yandırıb, kəsib. Özlərini burada, necə deyərlər, əsrlərboyu yaşamış xalq kimi təqdim edirdilər. Əsrlərboyu orada yaşamış xalq heç vaxt bunu etməz, bu vəhşiliyi etməz. Onlar orada azərbaycanlıların evlərində yaşayıblar. Özləri üçün bir şey tikməyiblər, daşı daş üstündə qoymayıblar, ancaq istismar ediblər. Bizim torpaqlarımızı istismar ediblər. Mənə verilən məlumata görə, orada on minlərlə hektarda taxıl əkilib, xüsusilə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında. Mənə verilən məlumata görə, Ermənistan işğal edilmiş torpaqlarda ildə 90 min ton taxıl yığırdı. Ermənistanın işğal edilmiş bu torpaqlarla birlikdə ümumi taxıl istehsalı 190 min ton olub. Onun yarısını bizim torpaqlarımızdan götürürdü. Bu, torpaqlarımızın qanunsuz istismarıdır. Buna cavab verəcək, dəymiş ziyanı ödəyəcək. İndi onlar bundan məhrum oldular. İndi öz ərzaq təhlükəsizliyini necə təmin edəcəklər? Orada böyük üzüm bağları mövcud idi. Mən Ağdam, Füzuli, Cəbrayıl rayonlarına gedərkən yolboyu görmüşdüm ki, bir çox üzüm bağlarımız dağıdılıb, orada köhnə şpalerlər qalıb. Amma bir çox yerlərdə üzüm bağları saxlanılıb. Ondan istifadə edirdi, bizim suyumuzdan istifadə edirdi, elektrik enerjisi istehsal edirdi. Vəhşi kimi gəlib başqasının torpağına onu istismar edib, onun mənşəyini dəyişdirmək istəyib, yaşayış məntəqələrinin adlarını dəyişdirmək istəyib, tarixi abidələrimizi yerlə-yeksan edib, saxta tarix yaradıb, xəritələr dərc edib. Bu, bölgədə mövcud olan ənənələrə, qaydalara, Qafqazda mövcud olan davranış qaydalarına tamamilə ziddir. Bu, bir daha onu göstərir ki, erməni xalqının bizim bölgə ilə heç bir əlaqəsi olmayıb. Bunlar heç vaxt Qafqaz xalqı olmayıb. Sonradan gəlmələrdir.

Biz isə artıq haqq-ədaləti bərpa etmişik. Biz tarixi həqiqəti bərpa etmişik.

Prezident seçiləndən sonra ilk mərhələdə münaqişənin həlli ilə bağlı ümidlərim var idi. Çünki danışıqlar müəyyən dərəcədə gedirdi. Kiçik olsa da, bəzi tərəqqi əldə edilmişdi, baza prinsipləri əsasında müəyyən addımlar atılmışdı. İşğal edilmiş torpaqların geri qaytarılması məsələsi bizi qane edirdi. Ancaq xalqların öz müqəddəratı prinsipinin ərazi bütövlüyü prinsipi ilə bərabər səviyyədə tutulması bizi qane etmirdi. Amma son illər mənim də, necə ki, Azərbaycan xalqının əksər hissəsinin bütün ümidləri artıq tükənmişdi.

*Ardı 3-cü səh.*

# İlham ƏLİYEV: “Laçın bizimdir”

*Əvvəli 2-ci səh.*



Sadəcə olaraq, mən demişdim, bir daha demək istəyirəm ki, nə vaxt nəyi etmək lazımdır, necə etmək lazımdır, hansı məqamda nəyi etmək lazımdır, hər şey gərək ölçülüb-biçilsin. Elə zərbə vurmalıyıq ki, düşmən o zərbədən ayılmasın. Elə zərbə vurmalıyıq ki, düşmən bundan sonra daha baş qaldırmasın. Bu müharibə bizim şanlı Qələbəmizdir. Biz fəxr edirik. Ancaq bizim vəzifəmiz ondan ibarətdir ki, erməni faşizmi bir daha bu bölgədə baş qaldırmasın. Əgər kimsə Ermənistana ikinci dövlət yaratmaq üçün ərazi vermək istəyirsə versinlər, orada ikinci erməni dövləti yaratsınlar, öz ərazisinin bir hissəsini onlara versinlər. Amma gəlib bizdən tələb etmək ki, tarixi, hüquqi Azərbaycan torpağında erməni dövləti yaradılsın, bu, hansı məntiqə sığır? Heç bir məntiqə, heç bir ədalətə sığmır. Sizin bizim torpağımızda nə işiniz var? Min kilometrlərlə məsafədə yerləşən ölkələr, indi qanunlar qəbul edirlər, parlamentlər bu məsələni müzakirə edirlər. Nə işi var Fransa parlamentinin bizim məsələ ilə əlaqədar? Neçə ildir Fransa Minsk qrupunun həmsədridir? Daşı daş üstə qoyub? Bir məsələnin həlli üçün praktiki addım atıb? İndi məsələ həll olunandan sonra görün nələr baş verir? Fransa Senatı qətnamə qəbul edir ki, Dağlıq Qarabağ tanınsın. Sizin onlardan xoşunuz gəlirsə, mən müharibə dövründə demişdim, verin Marsel şəhərini, onun adını dəyişdirin, onlara orada ikinci dövlət yaradın. Amma bizim işimizə heç kim qarışa bilməz. Bir daha demək istəyirəm ki, artıq “Dağlıq Qarabağ münaqişəsi” termini arxada qalıb. Məsləhət görmürəm ki, bu termin artıq dillərdə olsun. Ancaq tarix haqqında danışanda, əlbəttə ki, bu termindən istifadə etmək olar.

Biz müharibə dövründə Ermənistan ordusunu demək olar ki, məhv etdik. Mən müharibə dövründə müntəzəm olaraq düşmənin hərbi texnikasının məhv edilməsi ilə bağlı Azərbaycan xalqına məlumat verirdim. Artıq müharibə başa çatıb və bölgədə yeni dövr başlayır. Amma istərdim ki, Azərbaycan xalqına məlumat verim. Biz müharibə dövründə Ermənistan ordusunu necə məhv etmişik və nəyə görə Ermənistan baş naziri o alçaldıcı kapitulyasiya aktına imzasını qoydu.

Məhv edilmiş Ermənistan ordusunun texnikaları:

Tank əleyhinə vasitələr - 53 dənə, “Smerç” - dörd dənə, “Qrad” - 97 dənə, “Uraqan” - 2, “YARS” - 1, TOS odsaçan - 1, “S-300” zenit-raket kompleksləri - 7 atıcı qurğusu məhv edildi. İndi əgər təkcə bunun qiymətini hesablasalar, görərlər ki, biz Ermənistan ordusuna nə qədər böyük zərbə vurduq. Beləliklə, 7 atıcı qurğu, bir “S-300” radiolokatoru və iki “S-300” aşkaretmə stansiyası məhv edildi. “Oborona” radiolokasiya stansiyası - 1 dənə, “TOR” zenit-raket kompleksi - 5 dənə, “Osa” zenit-raket kompleksi - 40 dənə, “KUB” zenit-raket kompleksi - 4 dənə, “KRUQ” zenit-raket kompleksi - 1 dənə, zastava - 14 dənə, “S-125” zenit-raket kompleksi - 2 dənə, pilotsuz uçuş aparatları - 22 dənə, “Elbrus” əməliyyat-taktiki raket kompleksi - 2, ballistik raket - 1, “Toçka-U” raket kompleksi - 1, radioelektron mübarizə vasitələri - 5 dənə, “R-142” komanda qərargah maşını - 2 dənə, “Nebo-M” radiolokasiya stansiyası - 1 dənə, müxtəlif radiolokasiya stansiyaları - 7 dənə, “Reppelent” radio-texniki maneə vasitəsi - 4 dənə.

Düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikaları:

Özüyeriyən artilleriya qurğuları “Akasiya” və “Qvozdika” - 28-i məhv edilib, 5-i qənimət götürülüb. Müxtəlif çaplı toplar - 315-i məhv edilib, 37-si hərbi qənimət kimi götürülüb. Minaatanlar - 63-ü məhv edilib, 62-si qənimət götürülüb. Xüsusi avtomobillər - 10-u məhv edilib, 93-ü qənimət götürülüb. Qumbaraatan - 178-i qənimət götürülüb. Traktor - 10, “Şilka” zenit qurğusu - 5 ədəd qənimət götürülüb. Atıcı silahlar - 1380 atıcı silah qənimət götürülüb. 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdılıb. Tank - 287-si məhv edilib, 79-u qənimət götürülüb, toplam 366 tank. Siyahı davam edir. Piyadaların döyüş maşını - 69-u məhv edilib, 47-si qənimət götürülüb. “Su-25” təyyarəsi - 5-i məhv edilib. Yük avtomobilləri - 252-si məhv edilib, 270-i hərbi qənimət kimi götürülüb.

Bunlar deməyə əsas verir ki, Ermənistan ordusu yoxdur, məhv etmişik. Bu ordu onilliklər ərzində yaradılırdı. Bu orduya silahlar, sursatlar, ən müasir texnika verilirdi, özü də pulsuz, bunu hər kəs bilir. İndi mütəxəssislər getsinlər hesablasınlar, sadaladığım bu texnikanın qiyməti bəlkə də bir neçə milyarddır. Bəziləri deyirlər ki, 3 milyarddan çox, bəziləri daha çox. İndi hesablayarlar. Haradandır bu kasıb ölkədə bu qədər pul? Ermənistanın xarici dövlət borcu 8 milyard dollardır. Valyuta ehtiyatları təqribən 1 milyardın üstündədir. Bu ölkə borc içindədir. Xarici dövlət borcu ümumi daxili məhsulun 60 faizini təşkil edir. Bu ölkədə indi bütün iqtisadiyyat məhv olub gedir. Müharibədən sonra milli valyuta kəlləmayallaq getdi. Haradandır bu? Bu, bankrotdur. Bu, iflasa uğramış ölkədir. Bu qədər pulu haradan ödəyib? Bir də ki, göstərsin görüm, bu pulköçürmələrini necə həyata keçirib. Biz beynəlxalq qurumlara da müraciət edəcəyik, desinlər bizə, hansı kontraktlar əsasında bu pullar ödənilib. Ödənilibmi? Ödənilməyibsə, deməli, pulsuz alıb. Otuz il ərzində yığdıqları texnikanı 44 gün ərzində məhv etdik. Yoxdur Ermənistan ordusu, yoxdur. İndi onlar canlı qüvvəsinin də məhv edilməsi ilə bağlı saxta rəqəmlər verirlər. Bizdə məlumat var. Lazım olanda biz o məlumatı səsləndirəcəyik, işğalçı dövlət nə qədər canlı qüvvə itirib. Biz məhv etmişik Ermənistan ordusunu. Məhz buna görə məcbur olub, diz çöküb bizim qabağımızda və kapitulyasiya aktına imza atıb. Hər kəs üçün bu, dərs olmalıdır.

Bildirməliyəm ki, noyabrın 10-da imzalanmış bəyanat icra edilir. Burada istərdim ki, Azərbaycan xalqı da bilsin, bəzən buna noyabrın 9-da imzalanmış bəyanat deyirlər, bəzən noyabrın 10-da. Mən bu bəyanatı Rusiya Prezidenti Vladimir Putinlə ikimiz videokonfrans vasitəsilə Bakı vaxtı ilə noyabrın 10-da imzalamışam. Bizim Rusiya ilə bir saat fərqimiz var. Yəqin ki, bu uyğunsuzluq buna görədir. Ona görə noyabrın 10-da imzalanmış bəyanat icra edilir. Mən imzalanma mərasimindən sonra bu bəyanatı olduğu kimi Azərbaycan xalqının diqqətinə çatdırdım və bir daha göstərdim ki, bizim bütün işlərimiz şəffafdır. Mən xalqın gözü qarşısında bunu imzalamışam, böyük qürur hissi ilə imzalamışam, qalib kimi imzalamışam. Bu bəyanatın bütün mətnini Azərbaycan xalqının diqqətinə çatdırdım. Bu gün isə artıq münaqişə arxada qalandan sonra bu bəyanatın icrasını şərh etmək istərdim. Deməli, birinci bənddə göstərilən məsələlər artıq təmin edilib. Noyabrın 10-dan başlayaraq atəşkəs təmin edilibdir. Hərdənbir Ermənistan tərəfindən atəşkəsin pozulması halları olur. Biz isə layiqli cavab veririk. Ancaq Azərbaycan tərəfindən atəşkəsin pozulması halları olmamışdır və bütövlükdə, atəşkəs təmin edilir. İkinci bənddə göstərilir ki, noyabrın 20-də Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır. Bu, təmin edildi. Üçüncü bənddə göstərilir ki, Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 zirehli hərbi texnikasından, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir. Bu, təmin edildi. Dördüncü bənddə göstərilir ki, bu bəyanatın müddəti 5 ildir. Əgər müddətin bitməsinə 6 ay qalmış tərəflər buna etiraz etməsələr, bu bəyanat və bu razılaşma uzadılır. Bu, aydın məsələdir. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır. Bu bəyanat imzalananda bu bənd o qədər də geniş açıqlanmamışdır. Ancaq biz bunu imzalayanda artıq razılaşmışdıq ki, bu mərkəz Türkiyə-Rusiya mərkəzi olacaqdır və bu da artıq öz həllini tapıb. Sonra altıncı bənddə göstərilir ki, Ermənistan Respublikası 15 noyabrda Kəlbəcər rayonunu və 1 dekabr tarixinədək Laçın rayonunu qaytarır. Bildiyiniz kimi, Rusiya tərəfi bizə müraciət edərək bir qədər vaxt istəyib. Kəlbəcər rayonunun bizə qaytarılması 15 noyabrda yox, 25 noyabrda artıq təmin edilib. Altıncı bəndin bu hissəsi icra edilib. Laçın rayonu Azərbaycana qaytarılıb. Laçın dəhlizi Şuşa şəhərinə toxunmayacaq 5 kilometr enliyində Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Mən bu bəndi artıq şərh etmişdim. Bunun ilkin variantında 30 kilometr, ondan sonra eni 10 kilometr və bu, Rusiya sülhməramlı kontingentinin yox, erməni silahlı qüvvələrinin nəzarəti altında qalırdı, onu da biz bu Bəyanatdan çıxartdırdıq. Göstərilir ki, tərəflərin razılığı əsasında növbəti 3 il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. Bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Mən bu məsələni də şərh etmək istərdim. Burada nə göstərilir? İndi hamı yaxşı bilir ki, Laçın dəhlizi Laçın şəhərinin içindən keçir. Beləliklə, Laçın şəhəri o dəhlizin ortasında qalır. Mən isə Rusiya Prezidenti ilə söhbətlər əsnasında deyirdim ki, Laçın şəhəri də bizə qayıtmalıdır. Ona görə biz təklif edirik ki, yeni bir dəhliz inşa edilsin. Dağlıq Qarabağı Ermənistanla birləşdirən yeni bir dəhlizin marşrutu işlənilsin və inşa edilsin. Burada vaxt da göstərilib - 3 il ərzində. Ancaq mən hesab edirəm ki, biz bunu daha tez müddətdə edə bilərik. Yeni dəhlizin parametrləri müəyyən olunandan sonra Laçın şəhəri də bizə qaytarılacaqdır. Bu, xüsusi diqqətəlayiq məsələdir. Çünki əgər mən bunu bu bəyanata saldırmasaydım, Laçın dəhlizi Laçın şəhərini həmişə əhatə edəcəkdi.

Yeddinci bənddə göstərilir ki, məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır. Bu da önəmli məsələdir. Azərbaycan vətəndaşları Dağlıq Qarabağın bütün yerlərinə qayıtmalıdırlar, harada ki, onlar əvvəl yaşayıblar. Bu məsələyə artıq BMT nəzarət edəcək. Əlbəttə, bunun vaxtı var. Bu, növbəti təmaslar əsnasında həll olunacaqdır.

Səkkizinci bənddə göstərilir ki, hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir. Artıq bu proses davam edir - həm cəsədlərin mübadiləsi, həm əsirlərin və girovların.

Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşlarının nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda ikinci məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni, bu, nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda, yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir. Azərbaycan Türkiyə ilə birləşir. Rusiya, Azərbaycan, Türkiyə, İran və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər. Beləliklə, bölgədə beştərəfli yeni əməkdaşlıq platforması yaradıla bilər. Mən bu fikrimi artıq həm Rusiya, həm Türkiyə prezidentlərinə çatdırmışam. Həm Rəcəb Tayyib Ərdoğan, həm Vladimir Putin buna müsbət yanaşıblar. Bax, budur bizim təklifimiz. Biz istəyirik ki, bölgədə uzunmüddətli sülh olsun. Buna nail olmaq üçün gərək əməkdaşlıq da təhlükəsizlik tədbirləri ilə birlikdə inkişaf etsin. Biz əməkdaşlığa hazırıq. Bu doqquzuncu bənddə göstərilən məsələlərin arasında bizim üçün bir nömrəli məsələ Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək və eyni zamanda, Azərbaycanla Türkiyə arasında yeni bir nəqliyyat dəhlizi yaratmaqdır. Çünki bildiyiniz kimi, biz Bakı-Tbilisi-Qars dəmir yolunu bir neçə il bundan əvvəl istifadəyə verdik. Bu, artıq Türkiyə ilə Azərbaycan arasında dəmir yolları vasitəsilə bir bağlantıdır. Bu layihə də baş versə, - əminəm ki, baş verəcək, - bu, yeni bir bağlantı olacaq və burada beş ölkə bundan fayda götürə bilər. Regional təhlükəsizlik və əməkdaşlıq üçün bundan da yaxşı layihə ola bilər? Yox. Kimdir bunun təşəbbüskarı? Bizik. Kim bu bəndi buraya salıb? Mən. Bu gün - dekabrın 1-də biz bu işlərin artıq inkişafını görürük. Mən deyə bilərəm ki, artıq “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinə göstəriş verildi ki, Horadiz-Zəngilan dəmir yolunun, hansı ki, mənfur düşmən dağıdıb, təhlili aparılsın, ilkin hesablamalar aparılsın. Eyni zamanda Rusiya Federasiyasının nümayəndə heyətinin Azərbaycana etdiyi səfər çərçivəsində, o cümlədən dəmir yollarının bərpası məsələləri müzakirə olunubdur. Ermənistan dəmir yolları Rusiya dəmir yollarına məxsusdur, 100 faiz. Ona görə biz bu məsələni Ermənistanla yox, Rusiya ilə müzakirə edirik. Çünki Ermənistanda nə var ki, Ermənistanın özünün olsun? Ermənistan beynəlxalq münasibətlərin subyekti deyil, obyektidir. Nəyə görə? İşğala görə. O tarixi şansı itirib, müstəqil ölkə ola bilməyib, iqtisadi imkanlarını itirib, işğala görə. Nə qazandı? Heç nə. Bu vaxta qədər bütün lazımi tədbirləri gördük. Nəqliyyat, energetika, iqtisadi əməkdaşlıq - bütün layihələri başa çatdırdıq. Dekabrın sonunda “Cənub qaz dəhlizi” artıq tam istifadəyə verilir. Onun son hissəsi olan TAP istifadəyə verilir. Ermənistan, haradasan? Kənarda qalmısan. Bu enerji dəhlizi Ermənistandan yan keçir. Kim keçirdib? Biz. Amma mənim yadımdadır, biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin marşrutunu, - o vaxt mən Dövlət Neft Şirkətində işləyirdim, - müəyyən edərkən bizə nə qədər təzyiqlər oldu, özü də Qərb ölkələrindən. Nə üçün Ermənistandan yan keçir? Bu, Gürcüstandan yox, Ermənistandan keçməlidir. O vaxt aparıcı Qərb ölkələri bizə şərt qoyurdu. Hətta o vaxt biz xarici kreditlərdən çox asılı idik. Yadımdadır, erməni təbliğatı, erməni lobbisi və ermənipərəst xarici dairələr tərəfindən aparılmış kampaniya nəticəsində Dünya Bankı bir il ərzində bizə veriləcək vəsaitin verilməsini təxirə saldı, dayandırdı, müxtəlif bəhanələrlə, guya ekoloji standartlar pozulur. Halbuki bu, cəfəngiyyatdır.

Ermənistan, haradasan? Bakı-Tbilisi-Ceyhan yan keçdi. Bakı-Tbilisi-Ərzurum da həmçinin. TANAP da həmçinin. İndi biz qazımızı Avropaya çatdırırıq. Sən, Ermənistan, pul qazana bilərdin. Kəmərin bir hissəsi sənin əlində ola bilərdi. Sən tranzit haqqı alacaqdın. Sən özünü nədən məhrum etdin?! Dəyərdimi buna? Bu işğalçılıq, bu düşmənçilik, qonşuya qarşı bu nifrət hissləri, onları, bax, bu günə saldı.

Biz nəqliyyatla, energetika ilə bağlı bütün işləri gördük. Biz nəinki neft-qaz, elektrik enerjisi dəhlizi yaratdıq. Bu gün Azərbaycan-Gürcüstan-Türkiyə enerji dəhlizi var. Bu gün Rusiya-Azərbaycan-İran enerji dəhlizi var. Bu gün Rusiya-Azərbaycan-İran nəqliyyat dəhlizi var. Bu il bu dəhliz vasitəsilə daşınan yüklərin həcmi təqribən 30-40 faiz artıb. Ermənistan 20 ildir ki, Şimal-Cənub nəqliyyat dəhlizi üzərində işləyir. Ortalıqda da bir şey yoxdur. Nə Şimal-Cənub dəhlizi ola bilər? Oradan, o dağlardan, o Mehri dağlarından dəmir yolu çəkmək olar? Adam gərək dəli olsun ki, oraya bir neçə milyard pul qoysun. Özü də yaxşı, tutaq ki, kimsə bu pulu verdi, sonra haraya gedəcək? Ermənistan, sən dalansan. Biz səni dalan etdik. Kim səni təcrid etdi? Biz. Enerji, nəqliyyat, elektroenergetika - biz onu təcrid etmişdik. Bu günlərdə bu çirkin qətnamələri qəbul edənlər və onların arxasında duranlar kömək etdimi onlara? Yox. Bizim iradəmizə təsir etdimi? Yox. Nəyə görə? Çünki güclü iradəmiz var, xalq-iqtidar birliyi var. Çünki Azərbaycan 1993-cü ildən bu günə qədər etibarlı əllərdədir. Azərbaycana rəhbərlik edən Ulu Öndər və ondan sonra mən Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutmuşuq. Ermənistan rəhbərləri kim olub? 20 il quldurlar - Koçaryan-Sarkisyan xunta rejimi, iki il yarım da kim olub, erməni xalqı özü bilir. Qatar getdi. Amma hələ də gec deyil. Hələ o qatara minə bilərsiniz, əgər bizim icazəmiz olsa, əgər bizim şərtlərimiz təmin olunsa. Bundan sonra belə olacaq, ancaq belə olacaq! Yeddi şərt qoyan Paşinyan, görəsən, indi hansı şərt qoya bilər və kimə şərt qoya bilər? Hanı o 7 şərt? Getdi işinə. Azərbaycan qondarma “Dağlıq Qarabağla” danışıqlar aparmalıdır, hanı o şərt? Cəhənnəmə getdi. “Dağlıq Qarabağ Ermənistandır və nöqtə” - bunu necə deyərlər, belə böyük həvəslə, bir qəhrəman kimi Xankəndidə bəyan etdi və hamı da ona əl çalırdı. Nə oldu? Qarabağ Ermənistandır? Gəlsin desin bunu. Qarabağ Azərbaycandır! Ona o əl çalanlar, o kriminal rejimin nümayəndələri indi ya məhv olublar, ya fərarilik ediblər. Özləri etiraf edirlər ki, 10 mindən çox fərari var. Deyirdi ki, Şuşada - bizim tarixi, qədim şəhərimiz, bizim ürəyimiz, canımız olan Şuşada bunlar qondarma “Dağlıq Qarabağın” parlamentini inşa edəcəklər. Nə oldu o parlament? Vurduq dağıtdıq, məhv etdik. Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi axırı nə olacaq. Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!

Mən müharibənin ilk günündən bu günə qədər - sentyabrın 27-dən dekabrın 1-nə qədər Azərbaycan xalqına dəfələrlə müraciətlər etmişəm, qələbə sevincini bölüşmüşəm, azad edilmiş şəhərlərimizin müjdəsini vermişəm. Özümü çox xoşbəxt adam hesab edirəm. Çünki bu Qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi. Göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, lap balaca uşaqlar, yaşlı insanlar, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri bir arzu ilə, biz hamımız bir arzu ilə yaşamışıq və bu arzunu həyata keçirmişik. Bu gün bizim bütün arzularımız çin olub. Bu, hər birimiz üçün doğrudan da böyük xoşbəxtlikdir. Artıq müharibə arxada qaldı.

Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir.

Mən bilirəm ki, bu günlər ərzində mənim hər bir çıxışımı Azərbaycan xalqı səbirsizliklə gözləyirdi. Çünki biz ilk günlərdən qələbə qazanmışdıq və bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz haradasa geriyə çəkilək, bir dəfə də. Halbuki müharibələrdə belə olur, ordular hücum edir, geri çəkilir, taktiki manevrlər edir. Biz bir gün də geri çəkilmədik. Yaralanmış və ağır vəziyyətdə olan əsgərlərimiz hospitallarda, xəstəxanalarda deyirdilər ki, tezliklə sağalaq, qayıdaq döyüş bölgəmizə. Şəhidlərimizin ruhu şad olsun, valideynləri onları dəfn edərkən deyirdilər ki, Vətən sağ olsun. Deyirdilər ki, ancaq irəli, ancaq irəli. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Mülki vətəndaşlar - 94 mülki vətəndaş həlak olub, 400-dən çox mülki vətəndaş vəhşi düşmən tərəfindən yaralanıb. Evi dağılmış insanlar o dağıntılardan çıxarkən deyirdilər ki, ancaq irəli. Bilirsiniz, bunu hər kəs bilməlidir və biz bütün dünyaya göstəririk ki, biz böyük xalqıq, yenilməz xalqıq. Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır.

Mən artıq bu mövzu ilə bağlı müraciətlərimi yekunlaşdırıram. Əminəm, bundan sonra, əlbəttə ki, bir çox hallarda doğma xalqıma öz sözlərimi deyəcəyəm. Amma bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

***AZƏRTAC***

# Bir qrup hərbi qulluqçunun səfərbərlik üzrə hərbi xidmətdən tərxis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə əsasən **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli 2280 nömrəli Sərəncamına əsasən hərbi xidmətə çağırılmış aşağıdakı kateqoriyadan olan hərbi qulluqçular 2020-ci il dekabrın 2-dən səfərbərlik üzrə hərbi xidmətdən tərxis edilsinlər:

1.1. üç və ya daha çox uşağı olan;

1.2. himayəsində I dərəcə əlilliyi müəyyən edilmiş şəxs olan;

1.3. himayəsində yetkinlik yaşına çatmayan bacısı və ya qardaşı olan;

1.4. ailənin tək övladı olan;

1.5. ataları və ya qardaşları döyüş əməliyyatları, habelə hərbi xidmət üzrə vəzifələrin icrası zamanı həlak olmuş və ya vəfat etmiş;

1.6. döyüş əməliyyatları zamanı yaralanmış, habelə hərbi-həkim komissiyaları tərəfindən dinc dövrdə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı sayılan;

1.7. yaxın qohumları Ermənistan Respublikasının hərbi təxribatları və Azərbaycan Respublikasının ərazilərini atəşə tutması nəticəsində həlak olmuş;

1.8. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq dövlət qeydiyyatına alınmış, fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmiş və akkreditasiya olunmuş təhsil müəssisələrində, eləcə də onların filiallarında, Azərbaycan Milli Elmlər Akademiyasında və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların Siyahısı"nda nəzərdə tutulmuş digər elmi təşkilatlarda əyani təhsilalma formasında bakalavriatda, magistraturada, doktoranturada (adyunkturada), əsas (baza ali) tibb təhsili və rezidenturada təhsil alan.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2020-ci il*

# "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 275; 2019, № 5, maddələr 877, 899; 2020, № 8, maddə 1065) ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1.1.7-ci və 5.1.2.14-cü yarımbəndlərdə "2020" rəqəmləri "2021" rəqəmləri ilə əvəz edilsin.

2. 5.1.2.3-cü yarımbənddə "2020, 2023" rəqəmləri "2021, 2024" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2020-ci il*

# Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı təsis edilsin.

**Maddə 2.** "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2020-ci il*

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı haqqında

## ƏSASNAMƏ

**Maddə 1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" (bundan sonra - "Vətən Müharibəsi Qəhrəmanı") adı Azərbaycan Respublikasının ən ali fərqlənmə dərəcəsidir.

1.2. "Vətən Müharibəsi Qəhrəmanı" adının xüsusi fərqlənmə nişanı - "Vətən Müharibəsi Qəhrəmanı" Azərbaycan Respublikasının medalıdır. "Vətən Müharibəsi Qəhrəmanı" Azərbaycan Respublikası medalının təsviri qanunla müəyyən olunur.

**Maddə 2. "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi qaydası**

2.1. "Vətən Müharibəsi Qəhrəmanı" adı Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin azad olunması zamanı düşmənin əlverişli ərazilərdə yerləşməsinə və inadlı müqavimətinə baxmayaraq, düşmən qüvvələrinin tam məğlub edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırıqlarına və Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edilməsinə, həmçinin döyüş əməliyyatlarında göstərdiyi şəxsi qəhrəmanlığa görə verilir.

2.2. "Vətən Müharibəsi Qəhrəmanı" adı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən onun öz təşəbbüsü ilə və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən irəli sürülmüş vəsatətlərə əsasən verilir.

2.3. "Vətən Müharibəsi Qəhrəmanı" adı almış şəxsə aşağıdakılar təqdim edilir:

2.3.1. "Vətən Müharibəsi Qəhrəmanı" Azərbaycan Respublikasının medalı;

2.3.2. "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aktı.

2.4. "Vətən Müharibəsi Qəhrəmanı" adı eyni şəxsə bir dəfə verilir.

**Maddə 3. Yekun müddəalar**

3.1. "Vətən Müharibəsi Qəhrəmanı" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, digər orden və medallardan yuxarıda "Qızıl Ulduz" medalından əvvəl taxılır.

3.2. "Vətən Müharibəsi Qəhrəmanı" adı almış şəxslər qanunla müəyyənləşdirilmiş güzəştlərdən istifadə edir.

3.3. "Vətən Müharibəsi Qəhrəmanı" adı almış şəxslər həmin addan Azərbaycan Respublikasının fəxri adları üçün müəyyən olunmuş qaydada məhrum edilirlər.

# "Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 204-VIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 204-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini tətbiq etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 204-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə"nin 1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslər, habelə dövlətə məxsus olan digər hüquqi şəxslər nəzərdə tutulur;

1.3. Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 204-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə"nin 1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Əsasnamənin 1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslər, habelə dövlətə məxsus olan digər hüquqi şəxslər nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 204-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2020-ci il*

# "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 205-VIQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 205-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini tətbiq etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 205-VIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı haqqında Əsasnamə"nin 2.2-ci (hər iki halda) və 2.3.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2.2-ci (birinci halda) və 2.3.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Əsasnamənin 2.2-ci (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 205-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2020-ci il*

# Birinci vitse-prezident Mehriban Əliyeva Laçın rayonunun işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Laçın rayonunun işğaldan azad olunması münasibətilə rəsmi "İnstagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:*

"Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edirəm! Qoy Uca Allah mərhəmətini xalqımızdan əsirgəməsin, bütün həmvətənlərimizə cansağlığı və səadət, Vətənimizə sülh, firavanlıq və nurlu gələcək bəxş etsin! Qarabağ Azərbaycandır!"

# Sahibə QAFAROVA: "Ali Baş Komandan başda olmaqla bu qürur hissini bizə yaşadan Ordumuza eşq olsun!"

*"İyirmi səkkiz illik erməni işğalından azad olunan Laçın rayonunda yenidən üçrəngli şanlı Bayrağımız dalğalanır. Ali Baş Komandan başda olmaqla bu qürur hissini bizə yaşadan Ordumuza eşq olsun! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"*

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin sədri Sahibə Qafarova özünün "Twitter" səhifəsindəki paylaşımında bildirib.



# Türkiyə-Rusiya Birgə Müşahidə Mərkəzi ən qısa zamanda fəaliyyətə başlayacaq

Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejimini nəzarətdə saxlamaq məqsədilə Türkiyənin milli müdafiə naziri Hulusi Akar ilə Rusiyanın müdafiə naziri Sergey Şoyqu arasında noyabrın 11-də videoformatla imzalanan anlaşma əsasında başlanan danışıqlar yekunlaşıb.

AZƏRTAC Türkiyə Milli Müdafiə Nazirliyinə istinadla xəbər verir ki, Türkiyə-Rusiya Birgə Müşahidə Mərkəzinin qurulması və fəaliyyəti ilə bağlı texniki məsələlərin həllinə dair danışıqlar başa çatıb və müvafiq sənəd imzalanıb. Mərkəzin ən qısa zamanda fəaliyyətə başlaması üçün mühüm işlər görülür.




# GUAM ölkələrinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində infrastruktur layihələrində iştirakı müzakirə edilib

Kiyevdə GUAM-ın Milli Əlaqələndiricilər Şurasının videokonfrans formatında keçirilən 54-cü iclasında quruma üzv ölkələr arasında iqtisadi əlaqələrin gücləndirilməsi, Azərbaycanın işğaldan azad olunan ərazilərində yeni layihələrin icrası məsələləri müzakirə olunub.




AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan GUAM-ın baş katibi Altay Əfəndiyev qurum çərçivəsində siyasi, iqtisadi əməkdaşlığın perspektivləri, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Videokonfransda iştirak edən Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev bildirib ki, bu il Azərbaycanın quruma sədrliyi dövründə əsasən infrastruktur, nəqliyyat, enerji layihələrinin həyata keçirilməsi istiqamətində layihələrin yekun variantları müzakirə edilib. Pandemiya dövründə GUAM daha səmərəli fəaliyyətə nail olmasa da, bir sıra vacib məsələlər müzakirə edilib.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yeni böyük infrastruktur layihələrin həyata keçiriləcəyini vurğulayan M.Məmmədquliyev bildirib ki, GUAM ölkələri də bu layihələrə öz töhfəsini verə bilər.

"Azərbaycan öz ədalətli haqqını bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi regionun inkişafına ciddi problemlər yaradırdı. Artıq problem həllini tapıb, işğaldan azad olunmuş ərazilərdə yeni quruculuq işlərinə başlanılır. Prezident İlham Əliyev həmin ərazilərin yenidən qurulması üçün dövlət proqramının hazırlanması tapşırığını verib. Bir sıra regional yol, infrastruktur layihələr həyata keçiriləcək", - deyə M.Məmmədquliyev əlavə edib.

İclasda çıxış edən Ukrayna, Gürcüstan və Moldova xarici işlər nazirlərinin müavinləri atəşkəsin əldə olunmasını, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini yüksək qiymətləndirdiklərini bəyan ediblər.

Videokonfransda həmçinin vurğulanıb ki, quruma üzv ölkələr beynəlxalq təşkilatlarda koordinasiyalı işi daha da təkmilləşdirməli, infrastruktur, enerji layihələrinin həyata keçirilməsini intensivləşdirməlidirlər.

Qeyd edək ki, 2021-ci ilin yanvarında GUAM-a sədrlik Azərbaycandan Gürcüstana keçəcək. Dekabr ayında GUAM-a üzv ölkələrin xarici işlər nazirləri, Baş nazirləri səviyyəsində iclasların keçirilməsi də nəzərdə tutulur.

# Azərbaycanla Britaniyanın nəqliyyat və rabitə sahələrində əməkdaşlığının inkişaf perspektivləri müzakirə edilib

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Ceyms Layl Şarp arasında görüş keçirilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın bir çox beynəlxalq layihələrin təşəbbüskarı və əsas iştirakçısı olduğunu vurğulayan nazir ölkəmizdə nəqliyyat və İKT sektorunda aparılan islahatlar, həyata keçirilən regional və yerli əhəmiyyətli layihələr, planlaşdırılan işlər barədə səfirə məlumat verib.

Nazirlikdə baş tutan görüşdə ölkələrimiz arasında nəqliyyat, telekommunikasiya, informasiya texnologiyaları, innovasiyalar və yüksək texnologiyalar sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 174-VIQD və 175-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddəyə “Azərbaycan Respublikasının ən yüksək təltifi - “Heydər Əliyev” ordeni;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

“Zəfər” ordeni;
“Qarabağ” ordeni;”;

1.2. 2-ci maddəyə “Qızıl Ulduz” medalı;” hissəsindən əvvəl “Vətən Müharibəsi Qəhrəmanı” medalı;” hissəsi və “İgidliyə görə” medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

“Cəsur döyüşçü” medalı;
“Döyüşdə fərqlənməyə görə” medalı;
“Suqovuşanın azad olunmasına görə” medalı;
“Cəbrayılın azad olunmasına görə” medalı;
“Xocavəndin azad olunmasına görə” medalı;
“Füzulinin azad olunmasına görə” medalı;
“Zəngilanın azad olunmasına görə” medalı;
“Qubadlının azad olunmasına görə” medalı;
“Şuşanın azad olunmasına görə” medalı;
“Kəlbəcərin azad olunmasına görə” medalı;
“Ağdamın azad olunmasına görə” medalı;
“Laçının azad olunmasına görə” medalı;
“Vətən müharibəsi iştirakçısı” medalı;
“Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” medalı;”.

**Maddə 2.** “Azərbaycan Respublikasının “Zəfər” ordeninin statutu” və “Azərbaycan Respublikasının “Zəfər” ordeninin təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan Respublikasının “Qarabağ” ordeninin statutu” və “Azərbaycan Respublikasının “Qarabağ” ordeninin təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 4.** “Vətən Müharibəsi Qəhrəmanı” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 5.** “Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Cəsur döyüşçü” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 6.** “Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 7.** “Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 8.** “Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 9.** “Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 10.** “Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 11.** “Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 12.** “Qubadlının azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Qubadlının azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 13.** “Şuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Şuşanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 14.** “Kəlbəcərin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Kəlbəcərin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 15.** “Ağdamın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Ağdamın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 16.** “Laçının azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Laçının azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 17.** “Vətən müharibəsi iştirakçısı” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Vətən müharibəsi iştirakçısı” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 18.** “Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2020-ci il*

---

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasının “Zəfər” ordeninin statutu

**Maddə 1. Təltif edilən şəxslər**

Azərbaycan Respublikasının “Zəfər” ordeni ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi zamanı əhəmiyyətli və ya strateji ərazinin, yaşayış məntəqəsinin, rayonun və ya şəhərin düşmən işğalından azad olunması ilə nəticələnmiş döyüş əməliyyatlarına, Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissə komandirləri və onlardan yuxarı rəhbər heyəti, habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə digər şəxslər təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

Azərbaycan Respublikasının “Zəfər” ordeni ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

Azərbaycan Respublikasının “Zəfər” ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər ordenləri və medalları olduqda “Heydər Əliyev” ordenindən sonra taxılır.

---

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasının “Zəfər” ordeninin təsviri

**Maddə 1. Ordenin ümumi təsviri**

Azərbaycan Respublikasının “Zəfər” ordeni (bundan sonra - orden) 900 əyarlı qızıldan hazırlanmış, sol və sağ tərəflərinə iki əyri qılınc, uclarına kiçik kürəciklər bərkidilmiş ayparadan, guşələri pilləvarı olan səkkizguşəli altlıqdan və aypara ilə altlığın üzərinə yerləşdirilmiş, uclarına kiçik kürəciklər bərkidilmiş ikitərəfli hamar şüalı səkkizguşəli ulduz formalı, diametri 42 mm olan lövhədən ibarətdir.

**Maddə 2. Ordenin ön tərəfi**

2.1. Ordenin ön tərəfində aypara ağ qızıldan, səkkizguşəli ulduz, qılınclar və altlığın guşələrinin mərkəzi elementləri sarı qızıldan hazırlanmışdır.

2.2. Səkkizguşəli ulduzun qalan elementləri tünd rəngdədir. Səkkizguşəli ulduzun üzərində zolaq ilə konturlanmış tünd rəngli dairəvi lövhə və onun mərkəzində yumruq formasında sıxılmış əl təsvir olunmuşdur. Zolağın üzərində səkkiz ədəd maili xətlər vardır.

2.3. Yumruq və kürəciklər relyefli olaraq qabarıqdır.

**Maddə 3. Ordenin arxa tərəfi**

3.1. Ordenin arxa tərəfi hamar səthlidir, mərkəzdən yuxarıda “ZƏFƏR” sözü, mərkəzdə “VƏTƏN MÜHARİBƏSİ 2020” sözləri və rəqəmləri qabarıq şəkildə yazılmışdır.

3.2. Ordenin arxa tərəfinin mərkəzdən aşağı hissəsində ordenin seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Ordenin elementləri**

4.1. Orden paltara bərkidilmək üçün elementi olan 37 mm x 50 mm ölçülü xara lentə 2 halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun rəngli zolaqlar təsvir olunmuşdur. Lentin mərkəzində 10 mm enində qırmızı rəngli şaquli zolaq, qırmızı zolaqdan sol və sağ tərəflərdə 13,5 mm enində yaşıl və mavi rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Yaşıl və mavi zolaqların üzərində qırmızı zolaqdan 1,5 mm aralı və bir-birinin arası 1,5 mm olan 1 mm enində üç qırmızı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.4. Xara lentin yuxarı hissəsinə 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.5. Lentin aşağı hissəsinə 40 mm x 12 mm ölçülü, yuxarı hissəsi düzbucaq, aşağı hissəsi üçbucaq formalı lövhə bərkidilmişdir.

4.6. Üçbucağın alt konturu iki relyefli qılınc formasında təsvir olunmuşdur. Üçbucağın mərkəzində relyefli aypara və ulduz vardır.

4.7. Ordenin dəstinə bir ədəd sinəyə taxılma və bir ədəd diametri 60 mm olan boyundan asılma orden daxildir.

4.8. Ordenə paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş iki ədəd 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.




---

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasının “Qarabağ” ordeninin statutu

**Maddə 1. Təltif edilən şəxslər**

Azərbaycan Respublikasının “Qarabağ” ordeni ilə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinin azad olunmasında, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində igidlik və mərdlik nümunəsi göstərmiş, hərbi əməliyyatlar zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu və hərbi qulluq vəzifəsini yerinə yetirərkən mərdlik və qətiyyət nümayiş etdirmiş, Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa və mühafizə edilməsində xüsusi xidmət göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları, habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə digər şəxslər təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

Azərbaycan Respublikasının “Qarabağ” ordeni ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

Azərbaycan Respublikasının “Qarabağ” ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər ordenləri və medalları olduqda, “Zəfər” ordenindən sonra taxılır.

---

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasının “Qarabağ” ordeninin təsviri

**Maddə 1. Ordenin ümumi təsviri**

Azərbaycan Respublikasının “Qarabağ” ordeni (bundan sonra - orden) 900 əyarlı qızıldan hazırlanmış, yuxarı hissəsi hər iki ucu bükülmüş lent formalı, qalan hissəsi üç təbəqəli konturlanmış 41 mm x 37 mm ölçülü oval formalı lövhədən ibarətdir.

**Maddə 2. Ordenin ön tərəfi**

2.1. Ordenin ön tərəfində lentin mərkəzində “QARABAĞ” sözü yazılmışdır. Lövhənin daxili konturunun içərisində tünd yaşıl minalı fonda dəbilqə, iki kəsişən qılınc, aypara və ulduzdan ibarət kompozisiya təsvir olunmuşdur.

2.2. Lövhənin aşağı hissəsindən yuxarıya doğru sol və sağ tərəflərdə palıd çələngləri təsvir olunmuşdur.

2.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Ordenin arxa tərəfi**

Ordenin arxa tərəfi hamar səthlidir, mərkəzində ordenin seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Ordenin elementləri**

4.1. Orden paltara bərkidilmək üçün elementi olan 52 mm x 15 mm ölçülü tünd yaşıl minalı bükülmüş lent formalı lövhəyə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Lövhənin üzərində üfüqi vəziyyətdə nizələr həkk olunmuşdur. Lentin mərkəzində dairəvi lövhə yerləşdirilmişdir. Dairəvi lövhənin mərkəzindən yuxarı hissəsində üzəri xətlərlə işlənmiş ikitərəfli şüalı səkkizguşəli ulduz həkk olunmuşdur.

4.3. Dairəvi lövhənin aşağı hissəsindən yuxarıya doğru sol və sağ tərəflərdə səkkizguşəli ulduzu əhatə edən dəfnə çələngləri təsvir olunmuşdur.

4.4. Ordenə paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 52 mm x 10 mm ölçüdə qəlib əlavə edilir.




---

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Vətən Müharibəsi Qəhrəmanı” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Vətən Müharibəsi Qəhrəmanı” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) 900 əyarlı qızıldan hazırlanmış, biri digərinin üzərinə yerləşdirilmiş diametri 42 mm olan iki səkkizguşəli ulduz formalı lövhədən ibarətdir. Alt ulduz ağ qızıldan, üst ulduz sarı qızıldan hazırlanmışdır.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində alt ulduzun guşələri mərkəzdə ikitərəfli hamar şüalı, mərkəzdən sol və sağ tərəflərə doğru hamar pilləvarı formadadır.

2.2. Üst ulduzun guşələri uclarında kiçik kürəciklər olmaqla, ikitərəfli hamar şüalıdırlar. Üst ulduzun mərkəzində zolaq ilə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir. Lövhənin ətrafında guşələri hamar şüalı səkkizguşəli ulduz təsvir olunmuşdur. Zolağın üzərində səkkiz ədəd maili xətlər vardır.

2.3. Dairəvi lövhənin mərkəzində tünd qırmızı minalı fonda aypara və ulduz təsvir olunmuşdur.

2.4. Bütün elementlər relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir, mərkəzdən yuxarıda “VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI” sözləri, mərkəzdə “VƏTƏN MÜHARİBƏSİ 2020” sözləri və rəqəmləri yazılmışdır. Yazılar və rəqəmlər relyefli olaraq qabarıqdır.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medalın paltara bərkidilmək üçün elementi olan 37 mm x 50 mm beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Üzərində Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərinə uyğun rənglərdə zolaqlar təsvir olunmuş xara lentin mərkəzinə səkkizguşəli ulduz bərkidilmişdir.

4.3. Lentin yuxarı hissəsinə 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.




---

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinin azad olunması zamanı müstəqil və ya digər qoşun növləri ilə birlikdə strateji və ya xüsusi əhəmiyyətli ərazilərin tutulması üzrə döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, havada və yerdə düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “İgidliyə görə” medalından sonra taxılır.

---

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Cəsur döyüşçü” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) diametri 38 mm olan, bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş səkkizguşəli lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində səkkizguşəli lövhə dekorativ naxışla bəzədilmiş zolaq ilə konturlanmışdır.

2.2. Konturun içərisində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.3. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “CƏSUR DÖYÜŞÇÜ” sözləri yazılmış, aşağı qövs boyunca milli ornamentlər təsvir olunmuşdur.

2.4. Daxili çevrənin içərisində iki kəsişən qılınc və qalxandan ibarət kompozisiya təsvir olunmuşdur.

2.5. Kompozisiyadan sol və sağ tərəflərdə iki səkkizguşəli ulduz həkk olunmuşdur.

2.6. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan 37 mm x 24 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Tünd qırmızı rəngli xara lentin sol və sağ kənarlarından 3 mm aralı, hər birinin eni 4 mm olan iki şaquli ağ zolaq təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.




---

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı ilə döyüş şəraitində tapşırıqların icrası zamanı və həyat riski ilə əlaqəli xüsusi əməliyyatlar zamanı göstərilən fərqlilik, cəsarət və fədakarlıq, habelə döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə kömək edən bacarıqlı, təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etdirmiş, eləcə də döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi zamanı tabeçilikdə olan bölməyə peşəkarlıqla rəhbərlik etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Cəsur döyüşçü” medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, biri digərindən kiçik olmaqla, biri digərinin üzərində yerləşdirilmiş, guşələrinin araları birləşən qövsvarı xətlərlə konturlanmış iki səkkizguşəli ulduz formalı 42 mm ölçülü lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində səkkizguşəli ulduz formalı lövhənin üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.2. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “DÖYÜŞDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ” sözləri yazılmışdır.

2.3. Daxili çevrənin içərisində yerləşən, üzəri relyefli xətlərlə işlənmiş dairəvi lövhənin mərkəzində ikitərəfli hamar şüalı səkkizguşəli ulduz həkk olunmuşdur.

2.4. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz vardır. Səkkizguşəli ulduz ilə “DÖYÜŞDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ” sözləri arasında kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

2.5. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Qızılı rəngli xara lentin mərkəzində 5 mm enində tünd qırmızı rəngli şaquli zolaq təsvir olunmuşdur. Xara lentin sol və sağ kənarlarından mərkəzə doğru, biri digərindən 3 mm aralı, 3 mm enində tünd qırmızı və 2,5 mm enində yaşıl rəngli şaquli zolaqlar vardır.

4.3. Xara lentin yuxarı hissəsinə üzərində milli ornamentlər təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

**“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı**



*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Suqovuşan kəndinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Döyüşdə fərqlənməyə görə” medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca “SUQOVUŞAN”, aşağı qövs boyunca “3 OKTYABR 2020” sözləri yazılmışdır.

2.3. “3 OKTYABR 2020” sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. “SUQOVUŞAN” sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca “SUQOVUŞANIN AZAD OLUNMASINA GÖRƏ” sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

**“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı**



*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca “CƏBRAYIL”, aşağı qövs boyunca “4 OKTYABR 2020” sözləri yazılmışdır.

2.3. “4 OKTYABR 2020” sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. “CƏBRAYIL” sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca “CƏBRAYILIN AZAD OLUNMASINA GÖRƏ” sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

**“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı**



*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Cəbrayılın azad olunmasına görə” medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca “XOCAVƏND”, aşağı qövs boyunca “9 OKTYABR 2020” sözləri yazılmışdır.

2.3. “9 OKTYABR 2020” sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. “XOCAVƏND” sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca “XOCAVƏNDİN AZAD OLUNMASINA GÖRƏ” sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

**“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı**



*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Xocavəndin azad olunmasına görə” medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca “FÜZULİ”, aşağı qövs boyunca “17 OKTYABR 2020” sözləri yazılmışdır.

2.3. “17 OKTYABR 2020” sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. “FÜZULİ” sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca “FÜZULİNİN AZAD OLUNMASINA GÖRƏ” sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

**“Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı**



*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Suqovuşanın azad olunmasına görə” medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Füzulinin azad olunmasına görə” medalından sonra taxılır.

**“Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı**



*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca “ZƏNGİLAN”, aşağı qövs boyunca “20 OKTYABR 2020” sözləri yazılmışdır.

2.3. “20 OKTYABR 2020” sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. “ZƏNGİLAN” sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca “ZƏNGİLANIN AZAD OLUNMASINA GÖRƏ” sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

"Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Zəngilanın azad olunmasına görə" medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri




**Maddə 1. Medalın ümumi təsviri**

"Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca "QUBADLI", aşağı qövs boyunca "25 OKTYABR 2020" sözləri yazılmışdır.

2.3. "25 OKTYABR 2020" sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. "QUBADLI" sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca "QUBADLININ AZAD OLUNMASINA GÖRƏ" sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

"Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Qubadlının azad olunmasına görə" medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri




**Maddə 1. Medalın ümumi təsviri**

"Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca "ŞUŞA", aşağı qövs boyunca "8 NOYABR 2020" sözləri yazılmışdır.

2.3. "8 NOYABR 2020" sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. "ŞUŞA" sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca "ŞUŞANIN AZAD OLUNMASINA GÖRƏ" sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

"Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Şuşanın azad olunmasına görə" medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri




**Maddə 1. Medalın ümumi təsviri**

"Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca "KƏLBƏCƏR", aşağı qövs boyunca "15 NOYABR 2020" sözləri yazılmışdır.

2.3. "15 NOYABR 2020" sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. "KƏLBƏCƏR" sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca "KƏLBƏCƏRİN AZAD OLUNMASINA GÖRƏ" sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikası medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

"Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Kəlbəcərin azad olunmasına görə" medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri




**Maddə 1. Medalın ümumi təsviri**

"Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca "AĞDAM", aşağı qövs boyunca "20 NOYABR 2020" sözləri yazılmışdır.

2.3. "20 NOYABR 2020" sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. "AĞDAM" sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca "AĞDAMIN AZAD OLUNMASINA GÖRƏ" sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Laçının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Laçının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

"Laçının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Laçının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Ağdamın azad olunmasına görə" medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Laçının azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri




**Maddə 1. Medalın ümumi təsviri**

"Laçının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca "LAÇIN", aşağı qövs boyunca "1 DEKABR 2020" sözləri yazılmışdır.

2.3. "1 DEKABR 2020" sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. "LAÇIN" sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca "LAÇININ AZAD OLUNMASINA GÖRƏ" sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinin azad olunması uğrunda Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ön cəbhədə fədakarlıq göstərmiş əməkdaşları və mülki işçiləri təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

"Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Laçının azad olunmasına görə" medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikası medalının təsviri




**Maddə 1. Medalın ümumi təsviri**

"Vətən Müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, guşələrinin ətrafı üçbucaq formalı xətlərlə, guşələrinin arası qövsvarı xətlərlə konturlanmış, guşələri ikitərəfli hamar şüalı, guşələrinin arası 32 ədəd qısa ikitərəfli hamar şüalı diametri 42 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir. Xarici və daxili çevrələrin arasında qırmızı minalı fonda yuxarı qövs boyunca "VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI" sözləri yazılmışdır, aşağı qövs boyunca mərkəzdən sol və sağ tərəflərə doğru dəfnə çələngləri təsvir olunmuşdur. Yazı ilə çələnglərin arasında, sol və sağ tərəflərdə iki səkkizguşəli ulduz təsvir olunmuşdur.

2.2. Daxili çevrənin içərisində səthi relyefli xətlərlə işlənmiş dairənin mərkəzində qoşa xətlərlə konturlanmış səkkizguşəli ulduz formalı lövhə, lövhənin mərkəzində isə ikitərəfli hamar şüalı səkkizguşəli ulduz təsvir olunmuşdur.

2.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

Medalın paltara bərkidilmək üçün elementi vardır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinin azad olunması və dövlət sərhədlərinin mühafizəsi zamanı arxa cəbhədə döyüş təminatı tapşırıqlarının yerinə yetirilməsində fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə fədakar əməyinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

"Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Vətən müharibəsi iştirakçısı" medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikası medalının təsviri




**Maddə 1. Medalın ümumi təsviri**

"Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, xarici və daxili çevrələrlə konturlanmış, diametri 38 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində daxili və xarici çevrələrin arasında yuxarı qövs boyunca "VƏTƏN MÜHARİBƏSİNDƏ" sözləri, aşağı qövs boyunca "ARXA CƏBHƏDƏ XİDMƏTLƏRƏ GÖRƏ" sözləri yazılmışdır.

2.2. Daxili konturun mərkəzdən yuxarı hissəsində şaquli vəziyyətdə biri digərindən kiçik olmaqla bir-birinin üzərinə iki oval formalı lövhə yerləşdirilmişdir. Altdakı ovalın üzərində doğan günəş şüaları təsvir olunmuşdur. Kiçik ovalın üzərində tünd yaşıl minalı fonda alov təsvir olunmuşdur.

2.3. Daxili çevrə ilə oval lövhənin arasında sol və sağ tərəflərdə aşağıdan yuxarıya doğru oval lövhəni əhatə edən dəfnə çələngləri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan 37 mm x 50 mm ölçülü tünd yaşıl rəngli beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycanın əlamətdar zəfəri və işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin azad edilməsi münasibətilə Zati-alinizə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) adından və şəxsən öz adımdan səmimi təbriklərimizi çatdırmaqdan şərəf duyuram.

Baş Katiblik İƏT və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamə və qərarlara uyğun olaraq bütün rəsmi bəyanatlarında və fəaliyyətlərində Azərbaycan Respublikasını və onun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətiyyətli mövqeyini davamlı olaraq dəstəkləyib.

Bu xoş fürsətdən istifadə edərək İslam Əməkdaşlıq Təşkilatı, onun əlaqədar qurumları və Azərbaycan Respublikası arasındakı sıx əməkdaşlığın Qarabağın əhalisinə və onların uzun müddətdir gözlədikləri ana yurda qayıdışlarına töhfə verəcəyinə əminliyimi bildirmək istəyirəm. Azərbaycan xalqına sülh, tərəqqi və rifah arzulayıram.

Cənab Prezident, xahiş edirəm ən dərin ehtiramımı qəbul edin.

***Yusif bin Əhməd əl-OSAYMİN,***
***İslam Əməkdaşlıq Təşkilatının***
***Baş katibi***

## Milli Məclisin deputatları NATO PA-nın Cənubi Qafqazla bağlı keçirilən Rouz-Rout seminarında iştirak ediblər

Noyabrın 30-da NATO Parlament Assambleyasının Cənubi Qafqazda vəziyyətə həsr olunmuş Rouz-Rout seminarı keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, videokonfrans formatında keçirilən seminarda parlamentin NATO PA-da nümayəndə heyətinin rəhbəri, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və nümayəndə heyətinin üzvü Məlahət İbrahimqızı iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərov əvvəlcə NATO Parlament Assambleyasının prezidenti Gerald Konnolini bu vəzifəyə seçilməsi münasibətilə təbriklərini çatdırıb.

Sonra Ermənistandan olan deputatın çıxışına cavab verən Ziyafət Əsgərov deyib ki, Ermənistan-Azərbaycan münaqişəsi haqqında çıxış edənlər bu münaqişənin beynəlxalq hüquqi aspektləri barədə danışsınlar. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının bu ərazilərin Azərbaycan torpaqları olduğunu göstərən 4 qətnaməsi var. Həm tarixi, həm də hüquqi baxımdan bu ərazilər Azərbaycan torpaqlarıdır. Həmçinin Avropa İttifaqı və Avropa Şurası (BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi xaricində) bir sıra sənədlər və qətnamələr imzalayıb. 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının da Azərbaycanın ərazi bütövlüyünü birmənalı təsdiq edən müvafiq sənədləri var. "Siz Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğunu göstərən sənədlər qəbul etmisiniz. Mən soruşuram, 1 milyon mülki vətəndaşımız evlərini tərk etmək məcburiyyətində qalanda Avropa İttifaqı harada idi? Heç kim onlar haqqında düşünmürdü. 30 ildir danışırdıq və danışırıq. "Gəlin bunu sülh yolu ilə müzakirə edək" dedik. Ancaq biz torpaqlarımızı Ermənistanın işğalından azad etməyə başlayan kimi hamı birdən danışmağa başladı", - deyə o bildirib.

Daha sonra Ziyafət Əsgərov vurğulayıb ki, Azərbaycan ərazisinə bir nəfər də olsun terrorçu gətirilməyib. Əksinə, Ermənistan Livandan, Yunanıstandan, İraqdan, Fransadan həm erməni, həm də qeyri-erməni əsilli terrorçuları cəlb edib. Bununla bağlı sənədlər var və bu sənədlər müvafiq təşkilatlara təqdim olunub.

Azərbaycana kömək etdiyinə görə Türkiyəni günahlandırmağa gəlincə, Z.Əsgərov deyib ki, Türkiyə bizi mənəvi və siyasi cəhətdən dəstəkləyir. Türkiyə bizim üçün dost və qardaş ölkədir, bundan əlavə, Türkiyə Azərbaycanın beynəlxalq hüquq çərçivəsində tanınan ərazi bütövlüyünü dəstəkləyir. Türkiyə həm də ATƏT-in Minsk qrupunun üzvüdür.

Ermənistan tərəfinin müharibə zamanı mülki insanlara qarşı ballistik raket və fosfor bombalarından istifadə etməsi barədə danışan Ziyafət Əsgərov bildirib ki, Ermənistan humanitar normalar da daxil olmaqla bütün müharibə qaydalarını kobud şəkildə pozdu. Dinc şəhərlərimiz atəşə tutuldu, nəticədə qadın və uşaqlar da daxil olmaqla Azərbaycanın 94 mülki vətəndaşı öldürülüb, 400-dən çox mülki insan yaralanıb, 3000-dən çox ev dağıdılıb. Ermənilərin Kəlbəcər, Ağdam və Laçın rayonlarını tərk edərkən oradakı bütün evləri, meşələri yandırdıqlarını bildirən Z.Əsgərov deyib: "Biz bunlara necə baxmalıyıq? Bunlar azərbaycanlılar tərəfindən tikilən evlər idi. Bu, müharibə cinayətidir".

Sonda Z.Əsgərov bildirib ki, Azərbaycan xalqının 44 günlük Vətən müharibəsi 30 ilə yaxın düşmən işğalında qalan torpaqlarımızın azad edilməsi ilə başa çatdı. Müharibədə Azərbaycanın Ali Baş Komandanı başda olmaqla ordumuz və xalqımız qalib gəldi. Biz torpaqlarımızı azad etdik. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Qələbə xalqımızın bütün dünyaya haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu".

Sonra seminarda bir sıra ölkələrin nümayəndələri və ekspertlər çıxış edərək öz fikirlərini bildiriblər. Bununla da NATO Parlament Assambleyasının Cənubi Qafqazda vəziyyətə həsr olunmuş Rouz-Rout seminarı başa çatıb.

## *RF Müdafiə Nazirliyi:* "Rusiya və Türkiyə Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə birgə mərkəz barədə razılaşma əldə ediblər"

Rusiya və Türkiyə Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə birgə mərkəz barədə razılaşma əldə ediblər. AZƏRTAC xəbər verir ki, bu haqda Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi general-mayor İqor Konaşenkov bildirib.

O deyib: "Noyabrın 11-də RF Müdafiə Nazirliyi və Türkiyə Milli Müdafiə Nazirliyi arasında imzalanan memoranduma müvafiq olaraq, atəşkəsə və bütün hərbi əməliyyatların dayandırılmasına nəzarət üzrə Rusiya-Türkiyə birgə mərkəzinin yerləşdirilməsi və fəaliyyət göstərməsi qaydaları barədə razılıq əldə edilib. Mərkəz Azərbaycan ərazisində yerləşdiriləcək. Birgə mərkəzin təşkilati strukturunda rusiyalı və türkiyəli personalın sayı bərabər olacaq".

İ.Konaşenko həmçinin qeyd edib ki, Dağlıq Qarabağda rusiyalı sülhməramlı qüvvələrin bölmələri tərəfindən 34 hektardan artıq ərazi, təqribən 12 kilometr yol minalardan təmizlənib, 110-dan artıq ev və sosial obyektlər yoxlanılıb, partlayış təhlükəli 1077 əşya aşkarlanıb və zərərsizləşdirilib.

## Vətən müharibəsində yüksək peşəkarlıq göstərən dəniz piyadaları daimi dislokasiya məntəqəsinə geri qayıdıblar

Vətən müharibəsində yüksək peşəkarlıq nümayiş etdirən Azərbaycan Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları öz missiyalarını başa vuraraq hərbi hissəyə geri qayıdıblar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov nümayiş etdirdikləri bacarıq və peşəkarlığa görə onlara Müdafiə Nazirliyinin rəhbərliyi adından təşəkkürünü bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

## Sülhməramlı kontingent üçün maddi-texniki təminat vasitələrinin gətirilməsi prosesi davam edir

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlı kontingenti üçün maddi-texniki təminat vasitələrinin ölkəmizə gətirilməsi prosesi davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 1-də Rusiya sülhməramlılarının maddi-texniki təminatı üçün gətirilən vasitələr müəyyən olunmuş marşrut üzrə təyinat məntəqəsinə çatdırılıb.



# Zəfərin mübarək, AZƏRBAYCAN!

## Laçın rayonunun "Azersky" peykindən əldə edilmiş təsviri



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şücaətli Ordumuz sayəsində Azərbaycan bayrağı 28 ildən sonra yenidən Laçın rayonunda dalğalanır.

AZƏRTAC xəbər verir ki, "Azərkosmos" ASC erməni işğalından azad olunduqdan sonra Laçın rayonunun "Azersky" peyki vasitəsilə çəkilmiş təsvirlərini təqdim edib.

Laçın rayonu mühüm coğrafi mövqeyə malikdir: rayon ötən illər ərzində Ermənistanı Qarabağdakı separatçılar ilə birləşdirdiyi üçün düşmən tərəfdə böyük önəm daşıyırdı.

Laçında son illər ərzində Ermənistan tərəfindən qeyri-qanuni məskunlaşma işləri aparılıb. Laçın Tarix Muzeyindən Azərbaycanın mədəni irsini əks etdirən kolleksiyalar talan edilib. Təbii sərvətlərlə zəngin Laçın rayonunda olan Turşsu, Qaladərəsi, Nağdalı kimi müalicəvi bulaqlar, VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi və digər mədəni abidələrə qarşı vandalizm əməlləri törədilib.

Bu gün torpaqlarımızın işğaldan azad olunması ilə Ordumuz gələcək nəsillərə nümunə olacaq zəfər çalıb.

Eşq olsun müzəffər Azərbaycan Ordusuna!

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## İşğaldan azad olunan Laçın rayonunda Azərbaycan bayrağı qaldırılıb



Rəşadətli ordumuzun bölmələri işğaldan azad olunan Laçın rayonunda Azərbaycan bayrağını qaldırıblar.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## Xalqımız Laçının işğaldan azad olunmasının sevincini yaşayır









Dekabrın 1-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Laçının işğaldan azad olunması müjdəsini verdikdən sonra Bakı şəhərində avtomobil yürüşü keçirilib və Şəhidlər xiyabanı ziyarət edilib.

AZƏRTAC xəbər verir ki, Su İdman Sarayının yanından start götürən yürüş iştirakçıları paytaxtın küçə və prospektləri boyunca hərəkət ediblər. Şəhidlər xiyabanını ziyarət edən Bakı sakinləri və laçınlılar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman vətən övladlarının xatirəsini ehtiramla anıblar.

Əllərində Azərbaycan, Türkiyə və Rusiya bayraqları tutan insanlar "Laçın azaddır", "Biz Laçına qayıdırıq", "Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan Ordusu!", "Qarabağ Azərbaycandır!" şüarları səsləndirib, Müzəffər Ali Baş Komandanın portretini başları üzərinə qaldırıblar.

Yürüş iştirakçılarından bir neçəsi sevinc hisslərini AZƏRTAC-la bölüşüb.

Paytaxt sakini Nicat Məmmədov deyib: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi, qətiyyəti, rəşadətli Ordumuzun şücaəti, xalqın öz lideri ətrafında yumruq kimi birləşməsi Qələbəmizi təmin etdi. Bu gün Laçın rayonu işğaldan azad olundu. Ali Baş Komandanımız Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Bu gün tarixi gündür. Xalqımız dövlətimiz və ordumuzla qürur duyur, vətən torpaqları uğrunda canından keçən bütün şəhidlərimizin xatirəsini ehtiramla yad edir".

Digər müsahibimiz Muxtar Ələsgərov da Laçının işğaldan azad edilməsindən duyduğu sevinc hisslərini dilə gətirib: "Bu gün Laçın bizə qayıtdı, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Yaşasın Müzəffər Ali Baş komandan İlham Əliyev! Qarabağ Azərbaycandır!"

Paytaxt sakini Rəşad Əliyev Laçının işğaldan azad edilməsinin Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri olduğunu bildirərək ölkəmizin ərazi bütövlüyünün bərpasına görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq hissələrini ifadə edib.

Həmsöhbət olduğumuz digər yürüş iştirakçıları da Laçının azad olunmasını daha bir zəfər kimi qiymətləndirib, Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Kəlbəcərdə, nəhayət, Azərbaycanın dilbər guşələrindən biri olan Laçında üçrəngli bayrağımızın dalğalanmasından keçirdikləri qürur hisslərini dilə gətiriblər.

## *Laçın sakini:* "İlk olaraq kəndimizin qəbiristanlığını ziyarət edəcəyəm"

"Laçına qayıdanda ilk olaraq kəndimizin qəbiristanlığını ziyarət edəcəyəm. Sonra təhsil aldığım məktəbə, evimizə gedəcəyəm, bulaqları, ov elədiyim yerləri gəzəcəyəm, Mıxtökən dağına çıxacağam".

Bu sözləri AZƏRTAC-la söhbətində Laçın rayonunun Budaq Dərə kəndindən məcburi köçkün Şahsuvar Şahsuvarov deyib. Bildirib ki, 28 il ərzində bir gün də olsun doğma yurdu unutmayıb, Laçının işğaldan azad olunacağı günü gözləyib: "83 yaşım var. Ömrümün gözəl vaxtları Laçın rayonunda, dağlar qoynunda, səfalı yerlərdə keçib. Laçın kimi gözəl yer yoxdur. Hər yanı mənzərə idi. Baxdıqca doymurdun. Görən valeh olurdu. Kəndimizdə 9 yerdə sərin suyu olan bulaq var idi. Gözəl günlər yaşayırdıq".

Şahsuvar baba 28 ildir görmədiyi, gedə bilmədiyi doğma yurduna həsr etdiyi şeirdən bir bənd deyib kövrəldi:





*Gecə-gündüz çıxmır yaddan,*
*Bölünmüşəm, parasıyam Laçınımın.*
*Yenişiyəm, yoxuşuyam, dərəsiyəm*
*Ayaqlanmış lalasıyam Laçınımın*
*Qadasını alasıyam Laçınımın.*

Torpaqlarımızın qayıtmağını eşidəndə də sevincimdən gözlərimdən yaş gəlmişdi. Nəvəm gəlib məni qucaqladı, dedi ki, baba, muştuluğumu ver, Laçın azad edildi. Bu yaşımda Laçınıma qayıdım, Allahdan başqa istəyim yoxdur.

Fəxri Şahsuvarov uzun illər doğma yurdun həsrəti ilə yaşamağın çətin olduğunu bildirib: "28 ildir yurd həsrəti ilə yaşayırıq. Laçın işğal olunandan sonra müxtəlif vaxtlarda Ağdam rayonunda, Bərdədə, Ağcabədi rayonunun Qaradolaq kəndində məskunlaşdıq. İlk illərdə çətinliklərimiz çox olub. 2011-ci ildə Taxtakörpü ərazisində qəsəbə inşa olunduqdan sonra bura köçdük. İndi şəraitimiz yaxşıdır. Amma biz doğma yurdumuzu istəyirik. Şükürlər olsun ki, 28 illik həsrətə son qoyulur. Buna görə Müzəffər Ali Baş Komandana və ordumuza minnətdaram. Allahdan şəhidlərimizə rəhmət, döyüşlərdə yaralanan hərbçilərimizə şəfa diləyirəm. İndi səbirsizliklə Laçına qayıdacağımız günü gözləyirik. İlk növbədə, qəbiristanlığı və məktəbimizi ziyarət edəcəyəm. Oradan cığırla evimizə gedəcəyəm. Sonra gedib Gözbulaqdan su içəcəyəm".

Gülarə Şahsuvarova Laçın rayonuna qayıdacaqları, ömrünün qalan hissəsini doğma yurdlarında keçirəcəyi, nəvələrinin o torpaqlarda böyüyəcəyi üçün çox sevindiyini bildirib: "Laçından çıxanda 22 yaşım var idi. Yeni ailə qurmuşdum. Gənc ailə olaraq yurdumuzdan didərgin düşdük, ömrümüzün gözəl vaxtları köçkünlükdə keçdi. Şükürlər olsun ki, Laçınımıza qayıdacağıq. Qohumlar, qonşular yenidən bir yerə yığılacağıq. Yenə xeyrimiz-şərimiz bir olacaq. Nəvələrimiz Laçınımızda böyüyəcək".

İndi laçınlılar doğma yurdları, qayıdandan sonra görəcəkləri işlər ilə bağlı xəyallar, planlar qururlar. Laçın da doğma sakinlərin yolunu gözləyir. Həsrətin bitəcəyinə isə lap az qalıb.

# Biz birlikdə güclüyük!

## Koronavirusdan qorunmaq taleyüklü məsələdir

### Azərbaycan dövləti kimi, xalqımız da bu bəşəri bəladan xilas olmaq üçün güc və birliyini əsirgəməməlidir

Təxminən ötən ilin bu vaxtlarından başlayaraq bəşəriyyət gözə görünməyən düşmənlə üz-üzədir. Erməni separatizmi bir yandan, koronavirus isə digər yandan insanların dinc yaşayışına sadəcə əngəl olmadı, həm də onunla ciddi şəkildə mübarizəyə vadar etdi. Erməni vandalizmi ilə mübarizə özünün yeni mərhələsinə keçdikdən sonra xalqımızın və Azərbaycan dövlətinin inamlı və qətiyyətli addımları ilə düşmən məğlub edildi.



Dünyanı çənginə alan koronavirus pandemiyası (COVID-19) isə can almaqda davam edir. Düzdür, daha təhlükəli həddə çatmaması üçün ölkəmizdə bu ilin əvvəlindən başlanılan mübarizə - profilaktik, qabaqlayıcı tədbirlər effektivliyini göstərdi. Fevral ayının sonlarından başlayan mübarizə ilin yaz-yay aylarında özünün müsbət təsirini təsdiqlədi: yoluxma və ölənlərin sayında azalmalar hər gün müşahidə olundu. Əlbəttə, bu, dövlət səviyyəsində həyata keçirilən səmərəli tədbirlərin nəticəsi idi.

Lakin sonrakı dövrdə pandemiyanın yeni, daha güclü gözlənilən dalğasına əhalinin laqeyd münasibəti özünü çox gözlətmədi. Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın qəbul etdiyi qərarlar, edilən tövsiyələr, nəhayət, zəruri qadağalar birdən-birə sanki arxa plana keçirildi. Pandemiyanın dünyada yayıldığı ilk vaxtlarda Azərbaycan nəinki yerləşdiyi regionda, hətta Avropada nümunə göstərilsə də, son günlərin rəqəmləri vəziyyətin heç də ürəkaçan olmadlğını təsdiqlədi: yoluxmaların hətta dördrəqəmlini keçmək həddi, ölümlərin sayının buna müvafiq artması ciddi narahatlıq yaratmaya bilməzdi. Buna görə də əlaqədar təşkilatlar, o cümlədən daxili işlər orqanları əməkdaşları ciddi karantin rejiminin bərpası haqqında düşünməyə çağırdı. Artıq müəyyən tədbirlər də görülür.

Daxili İşlər Nazirliyinin son məlumatlarından bəlli olur ki, noyabrın 30-da keçirilən tədbirlər nəticəsində yaşayış yerini tərk edən 28 nəfərin yeri müəyyən edilərək saxlanılıb. Onlardan 26-sı evə qaytarılıb, 2 aktiv xəstə isə xəstəxanaya yerləşdirilib. Həmin xəstələrin 19-u barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması, xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda) maddəsi ilə cinayət işi başlanılıb.

Belə tədbirlər pandemiyanın daha geniş yayılmasının qarşısının alınmasına xidmət edir. Bunun üçün, ilk növbədə, vətəndaşların məsələyə daha ciddi yanaşması tələb olunur. Çünki hələ də koronavirus əleyhinə peyvəndin tapılması və istehsalına başlanması haqqında ürəkaçan məlumat yoxdur.

Düzdür, ABŞ-ın biotexnologiya şirkəti "Moderna"dan bildirilib ki, ABŞ və Avropada istehsal olunan COVID-19 əleyhinə peyvəndlərin təcili istifadəsi üçün müraciət edəcəklər. Çünki sonuncu dəfə aparılan test nəticəsində peyvənd koronavirusa qarşı 94 faiz təsirli olub. Bildirilib ki, şirkət peyvənddən təcili istifadə üçün ABŞ-ın Qida məhsulları və tibbi preparatların keyfiyyətinə nəzarət üzrə idarəsinə müraciət edəcək və Avropa Birliyindən şərti təsdiq almaq üçün lazımi prosedurları yerinə yetirəcək.

"Peyvəndin epidemiyanın gedişatını dəyişdirə biləcəyinə inanırıq. Ağır xəstəliklərin və ölüm faktlarının azalacağına ümid edirik", - deyə şirkətdən bildirilib.

Bunlarla yanaşı, ABŞ-ın Merilend Universitetinin Yoluxucu Xəstəliklər Klinikasının rəhbəri Fəridə Sultan Məhəmmədi bildirir ki, koronavirus ilə aylarla və ya illərlə yaşaya bilərik: "Nə inkar edək, nə də çaxnaşma yaradaq. Həyatımızı boşa verməyək. Gəlin bu həqiqətlə yaşamağı öyrənək: maska taxmaq, tez-tez əl yumaq və iki metrlik fiziki məsafə qorunmağın ən yaxşı yoludur. Evdə ürək-damar xəstəliyiniz yoxdursa, artıq ev səthlərini dezinfeksiya etməyin. Əllərinizi sadəcə tər-təmiz yuyun və həmişəki kimi yaşayın".

Həkim qeyd edir ki, koronavirus qida yoluxucu xəstəlik deyil. Xəstəlik qrip kimi bir damla infeksiya ilə əlaqələndirilir. Yemək sifariş edərkən mütləq korona axıdılması riski yoxdur. Bir çox allergiya və viral infeksiya ilə qoxu hissinizi itirə bilərsiniz. Bu, yalnız koronavirusun spesifik olmayan bir simptomudur.

Evə çatdıqda dərhal duş qəbul etməyiniz lazım deyil.

Bu, yaxın təmas tələb edən bir tənəffüs damlası infeksiyasıdır.

"Fiziki məsafənizi qoruyaraq parklarda yaxşı vaxt keçirə bilərsiniz", - deyə həkim əlavə edir ki, koronavirusa qarşı antibakterial deyil, adi sabundan istifadə etmək kifayətdir. Bu, bir bakteriyadır, virusdur: "Yemək sifarişlərindən narahat olmağınıza ehtiyac yoxdur. Ancaq istəsəniz, mikrodalğalı sobada isitləşdirə bilərsiniz. Lakin koronavirusu ayaqqabılarınızla evə gətirmə şansınız gündə iki dəfə ildırım vurması kimidir! 20 ildir viruslara qarşı işləyirəm. Təcrübəmə əsaslanıb deyə bilərəm ki, sirkə, qamış şəkəri və zəncəfil istehlak edərək özünüzü virusdan qoruya bilməzsiniz! Bu, müalicə deyil, toxunulmazlıq üçündür".

Mütəxəssislərin fikrincə, əlcək geymək vacib deyil. Virus əlcəklərlə yığıla bilər və üzə toxunaraq asanlıqla yayılar. Steril bir mühitə davamlı məruz qalmaq təhlükəsizliyi azaldır. İmmuniteti artıran qidalar qəbul etsəniz, bunun səmərəsi olar. Evdə oturub qızardılmış, ədviyyatlı, şirin yeməklər və içkilər yeməsəniz, ancaq patogenlərlə təmasda olsanız, bədənin toxunulmazlığı artır.

Həkim onu da bildirir ki, təcrid olunmuş xəstəxanalarda istifadə olunan dərmanlar əsasən bunlardır: Vitamin C 1000, vitamin E. Gündüz saat 10-11 radələrində 15-20 dəqiqə günəşdə oturun. Gündə bir yumurta yeyin. Yaxşıca istirahət edin: ən azı 7-8 saat yatın. Gündə 1,5 litr su için, bütün yeməklər isti olmalıdır.

Virusdan qurtarmaq üçün qida istehlak etməlisiniz: yaşıl limon, sarı limon, avokado, sarımsaq, mango, mandarin, ananas, portağal...

Koronavirus əlamətlərinə gəlincə, bunlara diqqət ayırmaq lazımdır: boğazda qaşınma, quru öskürək, yüksək temperatur, nəfəs darlığı, qoxu itkisi. Əgər bunlar varsa, hökmən həkimə müraciət etmək lazımdır. Bu, ilkin əlamətlər olduğu üçün müalicəsi adi qrip kimi, yüngül olur. Onu da unutmayaq ki, isti su ilə limon virusu ağciyərə çatmadan öldürür.

Koronavirusdan qorunmaq həm maddi, həm də mənəvi məsələdir. Azərbaycan dövləti kimi, xalqımız da bu bəşəri bəladan xilas olmaqda nümunə göstərməlidir. Özümüzü və özümüzünküləri, bütövlükdə isə xalqımızı və dövlətimizi qorumaq hər birimizin borcudur, bu isə öz əlimizdədir - məsuliyyətli olmağımızla...

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

## Dövlət Sosial Müdafiə Fondu dünəndən sosial mediaya açıqdır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) dekabrın 1-dən vətəndaş müraciətlərini özünün yeni fəaliyyətə başlayan "Facebook", "Instagram", "Telegram" və "Twitter" sosial səhifələri vasitəsilə də cavablandıracaq.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, vətəndaşlar
**www.facebook.com/dsmf.sosial.gov.az/**
**www.instagram.com/dsmf.sosial.gov.az/**
**t.me/dsmfsosialgovaz**
**twitter.com/dsmfsosialgovaz** səhifələri vasitəsilə pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı və digər sosial təminat növləri üzrə ödənişlər, sosial sığorta məsələləri, fərdi uçot və s. aid suallarını DSMF-yə ünvanlaya bilərlər.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun şəkildə izahatlar veriləcək. Araşdırma tələb edən müraciətlər isə müvafiq qaydada baxılaraq nəticəsinə uyğun tədbirlər görüləcək və müraciət edən vətəndaşlar bu barədə məlumatlandırılacaq.

Sosial şəbəkə səhifələrində DSMF-nin fəaliyyəti, bu sahədəki yeniliklər də ictimaiyyətə təqdim ediləcək.

## Azərbaycan İlahiyyat İnstitutunda dərslərin məsafədən keçirilməsi uğurla davam edir

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) dərslərin məsafədən keçirilməsi uğurla davam edir. İnstitutdan AZƏRTAC-a bildirilib ki, AİI-də təhsilin bütün pillələrində təhsilalanlar üçün dərslər sillabuslara və dərs cədvəllərinə uyğun olaraq, Təhsil Nazirliyinin tövsiyəsi ilə onlayn şəkildə "Microsoft Teams" platforması üzərindən keçirilir.




Tədris prosesi zamanı tələbələrin qiymətləndirilməsi, müəllim-tələbə müzakirəsinin aparılması, mühazirə, eləcə də digər materialların ötürülməsi və başqa məsələlərlə bağlı AİI-nin müvafiq şöbələri qarşılıqlı şəkildə fəaliyyət göstərir. Dərslərin məsafədən təşkili zamanı rəhbər heyət müntəzəm olaraq tələbələrlə onlayn görüşlər keçirir, onların problemlərini dinləyir, təklif və şikayətlərinin yerindəcə həll olunması üçün tapşırıqlar verir.

Eyni zamanda Azərbaycan İlahiyyat İnstitutunda 2020/2021-ci tədris ili üçün qış semestri imtahanlarına hazırlıq prosesinə başlanılıb. Yaxın günlərdə imtahanların keçirilməsi ilə bağlı Elmi Şuranın qərarı tələbələrə açıqlanacaq.

Qeyd edək ki, xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2020-ci il noyabrın 2-dən tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili təmin edilir. Baş nazir Əli Əsədovun qərara etdiyi dəyişikliyə əsasən, Azərbaycan Respublikasında distant tədris prosesinin müddəti dekabrın 1-dən 30-dək uzadılıb.

## Koronavirusa daha 4426 nəfər yoluxub, 1995 nəfər isə sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 4426 yoluxma faktı qeydə alınıb, 1995 nəfər müalicə olunaraq sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 41 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 125 min 602 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 76 min 897 nəfər müalicə olunaraq sağalıb, 1433 nəfər vəfat edib. Aktiv xəstə sayı 47272 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 746 min 198 test aparılıb. Dünənki test sayı isə 17621-dir.

## Masallıda pandemiyadan zərər çəkmiş qadın sahibkarlara dəstək göstərilib









Masallı rayonunda pandemiyadan zərər çəkmiş 10 qadın sahibkara öz bizneslərinin inkişaf etdirilməsi və bu istiqamətdə əlavə gəlirlərin əldə edilməsini stimullaşdırmaq məqsədilə dəstək göstərilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin tərəfdaşlığı, "Masallıda Qadınların Sosial İnkişafına Dəstək" İctimai Birliyinin icra etdiyi "COVID-19 pandemiyasından zərər çəkmiş qadın sahibkarlar üçün "Biznesin Təkmilləşdirilməsi" üzrə təlimlərin təşkili" layihəsi çərçivəsində pandemiyadan zərər çəkmiş sahibkar qadınlara zəruri avadanlıq və alətlər verilib.

Rayonda dərziçilik, arıçılıq, quşçuluq, süd məhsullarının istehsalı, konservləşdirmə və un məmulatlarının istehsalı ilə məşğul olan qadın sahibkarlara avadanlıq və alətlər birliyin sədri Nərgiz Muxtarovanın iştirakı ilə yaşadıqları ünvanlarda təqdim edilib.

Layihə çərçivəsində ilk olaraq 25 nəfər qadın sahibkar seçilib, onlar üçün üç gün ərzində "Zoom" platforması vasitəsilə biznesi təkmilləşdirməyə yönəlmiş distant təlimlər təşkil edilib.

Distant təlimlərdən sonra müraciət edənlər arasında pandemiyadan zərərçəkən, gəlirləri azalmış, layihə kriteriyalarına uyğun 10 qadın sahibkar seçilərək onlara dəstək göstərilib.

Qeyd edək ki, layihənin məqsədi qısa zaman ərzində COVID-19 pandemiyasından zərər çəkmiş qadın sahibkarların iqtisadi biliklərinin artırılması, onların bizneslərinin təkmilləşməsinə nail olmaq və stimullaşdırıcı tədbirlər həyata keçirməkdir.

## *<u>Baş infeksionist:</u>* "Yoluxanların əksər hissəsi xəstəliyi simptomsuz, yüngül və orta ağır keçirir"

Yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxanların 20 faizi xəstəliyi ağır, 5 faizi kritik, əksər hissəsi isə simptomsuz, yüngül və orta ağır keçirirlər. Xəstələrin 1,3 faizində ölüm halları müşahidə edilir.



AZƏRTAC xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib.

Baş infeksionist xəstəliyin yayılma səbəbləri barədə deyib: "Kəskin respirator virus infeksiyası fəsillə əlaqədardır, soyuq hava şəraitində, xüsusilə payız-qış aylarında ona yoluxanların sayında artım baş verir. Yeni növ koronavirus infeksiyasının Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən martda elan olunduğunu nəzərə alsaq, onun yayılmasının bir ili tamam olmayıb. Ona görə də xəstəliyin mövsümi xarakter daşıyıb-daşımadığını demək hələ tezdir. Bunun üçün müəyyən vaxt ötəndən sonra aparılan araşdırmalar nəticəsində müəyyən qənaətə gəlmək olar. Havalar soyuyanda insanlar daha çox qapalı məkanlarda toplaşırlar. Təbii ki, belə şəraitdə daha çox təmaslar olur, həmin məkanlarda havalandırma olmur, nəfəsliklər açılmır. Bu səbəblər də infeksiyanın artmasında başlıca rol oynayır".

Orqanizmin normal fəaliyyəti və maddələr mübadiləsinin gedişi üçün müxtəlif miqdarda vitamin və minerallar tələb olunur. Onların çatışmadığı təqdirdə orqanizm normal fəaliyyət göstərə bilməz. Baş infeksionist bununla əlaqədar deyib: "Həkimlər daha çox balanslaşdırılmış miqdarda olan polivitaminlərin qəbul edilməsini üstün tuturlar. Xəstələrin iki halda onu qəbul etməsi məsləhət bilinir. Birincisi, xarici səbəblərdir, məsələn, deyək ki, qış fəslidir və xəstənin həmin vitaminlərlə qidalanmaq imkanı yoxdursa və yaxud xəstə meyvə-tərəvəzlə qidalanmağı xoşlamırsa, həmin halda məsləhət görürük. İkincisi, daxili səbəblərdir, yəni kifayət qədər vitamin qəbul olunur, amma orqanizmdə mənimsənilmir. Bu, əsasən mədə-bağırsaq sisteminin xroniki xəstəlikləri zamanı baş verir. Bağırsaqda müəyyən mikroflora var və onun pozulması bir sıra vitaminlərin sintezində problemlər yaradır. Antibiotiklərin nizamsız və qeyri-düzgün istifadəsi mikrofloranı zədələyir və mübadilə prosesinin pozulmasına səbəb olur. Belə xəstəliklər olanda xəstəyə daha artıq miqdarda vitamin vurulur ki, onların sorulmasına kömək etsin.

İmmunitet sistemi ilboyu eyni qüvvədə qalmır. Yaz və payız aylarında xroniki xəstəliklərin kəskinləşdiyi bir faktdır və bu, həm də immun sistemindəki dəyişikliklərlə əlaqədardır. İmmun sisteminin qidalanma ilə tənzimlənməsi düzgün yoldur, çünki möhkəm immunitet sistemi xarici patogenlərlə mübarizədə daha yaxşı reaksiya göstərir və yoluxma sayının azalmasında rol oynaya bilər. Lakin yalnız bu faktorla məsələ həll olunmur, digər faktorlar da var. İmmunitetin möhkəm olması üçün qidalanmadan başqa stressdən uzaq olmaq, normal yuxu və fiziki aktivlik də əsas şərtdir. Bunlar kompleks halda immuniteti yüksəldə bilər, yəni immunitet nə qədər adekvatdırsa, yoluxma sayı da o qədər azala bilər".

## Bölgələrdə COVID-19 xəstələrinə qarşı cinayət işi başlanıb

Ağdaş Rayon Polis Şöbəsi əməkdaşları COVID-19 infeksiyasına yoluxmuş rayon sakinlərinin yaşadıqları ünvanları tərk etdiklərini müəyyənləşdiriblər.

DİN-in Mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, məlumata əsasən, rayonun Hüşün kənd sakini Kamil Ağayevin və Ağzıbir kənd sakini Elxan Mikayılovun koronavirus testlərinin nəticəsi pozitiv olduğuna görə onlara ev şəraitində müalicə təyin olunub və qaydalara riayət etmələri tapşırılıb. Ancaq həmin şəxslər digərlərinin də sağlamlığı üçün real təhlükə yaradaraq yaşadıqları evləri tərk ediblər. Həmin şəxslər polis əməkdaşları tərəfindən yaşadıqları ünvanlara geri qaytarılıblar.

Hər iki şəxs barəsində Ağdaş Rayon Polis Şöbəsinin istintaq qrupunda cinayət işi başlanıb.

* * *

Koronavirus infeksiyasının yayılmasının qarşının alınması məqsədilə ölkəmizdə elan olunan xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.

Qazax Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, rayon sakini 1996-cı il təvəllüdlü Mustafayev Kənan Xəlil oğlu COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsinin pozitiv olduğunu bilə-bilə xüsusi karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda, noyabrın 30-da rayon ərazisində mağazaya gedərək sakinlərlə təmasda olub. Bununla da o, epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Qazax Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb. İstintaqın aparılması üçün aidiyyəti üzrə Qazax Rayon Polis Şöbəsinə göndərilib.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

* * *

Gəncə Şəhər Baş Polis İdarəsinin və onun tabe qurumlarının əməkdaşları koronavirusa yoluxmuş şəxslərin yaşadıqları evləri qanunsuz tərk etmələrinə qarşı fasiləsiz tədbirlər həyata keçirirlər.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, koronavirus testinin nəticəsi pozitiv çıxan şəhər sakinləri Asəf Həsənov, Ramil Məmmədov, Çingiz Kazımov, Asəf Məsimov və Sadiq Abdullayevin ev şəraitində müalicə almalarına baxmayaraq, karantin qaydalarını kobud şəkildə pozaraq yaşadıqları ünvanları tərk etmələri aşkarlanıb.

Həmin şəxslər müvafiq tibbi prosedurlar gözlənilməklə yaşadıqları evə göndəriliblər. Onların barələrində Gəncə Şəhər Baş Polis İdarəsinin istintaq və təhqiqat idarəsində cinayət işi başlanıb.

* * *

Balakən Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində yaşadığı ünvanı tərk edən koronavirus xəstəsi saxlanılıb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, COVID-19 testinin nəticəsi pozitiv çıxan şəhər sakini Elmin Qantayevə ev şəraitində müalicə təyin olunub və karantin qaydalarına riayət etməsi tapşırılıb. Ancaq koronavirus daşıyıcısı olan E.Qantayev qaydaları kobud şəkildə pozaraq ictimaiyyət arasına çıxıb və virusun daha çox yayılmasına şərait yaradıb. O, idarə etdiyi avtomobillə şəhər ərazisində hərəkətdə olan zaman polis əməkdaşları tərəfindən saxlanılıb. E.Qantayev müəyyənləşdirilmiş tibbi prosedurlar da gözlənilməklə koronavirus xəstələrinin müalicə aldığı xəstəxanaya yerləşdirilib.

Onun barəsində Balakən Rayon Polis Şöbəsinin istintaq bölməsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 139-1.1-ci maddəsi ilə cinayət işi başlanıb.

* * *

Şabran rayon sakinləri İ.Əliyevə və A.Tacıyevə COVID-19 virusuna yoluxduqları üçün ev şəraitində müalicə təyin edilsə də, hər iki şəxs qaydalara əməl etməyərək yaşadıqları evi tərk edib və virusun yayılmasına şərait yaradıblar.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, polis əməkdaşları tərəfindən onların olduqları yerlər müəyyən edilib və dərhal yaşadıqları ünvanlara geri qaytarılıblar.

Faktlarla əlaqədar İ.Əliyev və A.Tacıyev barəsində Şabran RPŞ-nin İstintaq bölməsində araşdırma aparılır.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Qardaş Azərbaycan Qarabağda əldə olunan böyük zəfərdən sonra işğal altındakı torpaqlarına qovuşmaqda davam edir. Qəhrəman Azərbaycan Ordusu Ağdam və Kəlbəcərdən sonra bu dəfə də Laçına daxil olub. Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu ifadələr Laçın rayonunun işğaldan azad olunması münasibətilə Türkiyə Milli Müdafiə Nazirliyinin internet səhifəsində yer alan paylaşımda əksini tapıb. Paylaşımda şanlı ordumuzun Laçın rayonuna daxil olmasını əks etdirən görüntülər də yer alıb.

❖ ❖ ❖




Azərbaycan Respublikası, Rusiya Federasiyası prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən Azərbaycan Ordusunun bölmələrinin dekabrın 1-də Laçın rayonuna daxil olması barədə məlumat Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən dünyada baş verən ən mühüm hadisə kimi təqdim olunub.

AZƏRTAC xəbər verir ki, televiziya kanalları və xəbər agentlikləri, o cümlədən qəzetlərin elektron versiyaları Azərbaycanın işğalçı Ermənistan üzərində tarixi hərbi zəfərinin növbəti qələbəsi ilə bağlı anındaca məlumat yaymağa başlayıblar. Məlum təslimçilik razılaşmasına məcbur edilən Ermənistanın işğal etdiyi rayonlardan axırıncını tərk etməsi, o cümlədən qoşun birləşmələrimizin bölgəyə girməsi ilə bağlı geniş kadrlar yayılıb. Vurğulanır ki, bu gündən prosesin yeni bir mərhələsi başlanır.

Ermənilərin bölgəni tərk etməzdən əvvəl yaşayış binalarına, tarixi yerlərə və təbiətə qarşı törədilən amansız rəftar barədə süjetlər yayan telekanallar baş verənləri vandalizm aktı kimi dəyərləndirir. Diqqətə çatdırılır ki, eyni vəhşilik və vandallıq Ağdam və Kəlbəcər rayonları ərazisində təkrar olunub. Bildirilir ki, Azərbaycan humanistlik nümayiş etdirərək işğalçı qüvvələrin bölgəni tərk etməsinə yetərincə zaman verir. Lakin işğalçı ordunun silahlı quldurları azərbaycanlı əhalini öz yurdlarından vəhşiliklə, ayaqyalın qovmuşdular.

❖ ❖ ❖




Laçın rayonunun işğaldan azad olunması və dekabrın 1-də Azərbaycan Ordusunun bölmələrinin Laçına daxil olması ilə bağlı xəbər Gürcüstan KİV-in diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, ölkənin report.ge, interpress.ge, 24news.ge, aktual.ge və informasiya portallarında verilən materiallarda 28 ildən sonra Laçın rayonunun işğaldan azad olunması, Azərbaycan Ordusunun bölmələrinin rayona daxil olması və üçrəngli Azərbaycan bayrağının Laçında dalğalanması barədə oxuculara məlumat verilir.

Foto və video görüntülərlə təqdim olunan materiallar Azərbaycan, gürcü, rus və ingilis dillərində yayımlanıb.

❖ ❖ ❖




Özbəkistanın "qalampir.uz"," tnews.uz","kun.uz.uz" və "interpress.uz" portallarında Azərbaycan Ordusunun Laçın rayonuna daxil olması və bu şəhərdə Azərbaycan bayrağının dalğalanması haqqında materiallar verilib.

Qeyd olunur ki, noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları birgə bəyanata əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana təhvil verilib.

"tnews.uz" portalı yazır ki, işğaldan azad olunan Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri yerlə-yeksan olunub, bu şəhərlərdə bir dənə də olsun salamat bina, ev qalmayıb, infrastruktur məhv edilib. Kəlbəcər rayonunda isə evlər və meşələr yandırılıb.

Yazılarda sentyabrın 27-də Ermənistanın növbəti təxribatı nəticəsində Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatından söhbət açılır, Dağlıq Qarabağın tarixi haqqında məlumat verilir.

❖ ❖ ❖




İndoneziyanın "katakini.com" saytı noyabrın 30-dan dekabrın 1-nə keçən gecə Azərbaycan Ordusunun bölmələrinin Laçın rayonuna daxil olması barədə xəbəri yayıb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, yazıda Ermənistan tərəfindən 28 il işğalda saxlanılan rayonun Azərbaycana qaytarıldığı bildirilir.

Qeyd edilir ki, həmin rayon Azərbaycan Ordusunun cəbhədə qazandığı böyük qələbədən sonra imzalanan bəyanata əsasən yenidən Azərbaycanın tərkibinə qaytarılıb. Noyabrın 30-u ermənilərin leqal şəkildə Laçını tərk etməsi üçün son müddət idi.

Məqalədə işğala qədər Laçın rayonunda 65 mindən çox azərbaycanlının yaşadığı xüsusi vurğulanır.

Yazıda keçmiş Sovet İttifaqının iki respublikası arasında ötən əsrin 90-cı illərində başlanmış münaqişə nəticəsində xarici havadarlarına arxalanan Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik daha yeddi rayonu işğal etməsi barədə də məlumat öz əksini tapıb.

Bildirilir ki, ermənilərin cari il sentyabrın 27-də mülki əhaliyə qarşı törətdiyi növbəti təxribatdan sonra əks-hücuma keçən Azərbaycan Ordusu 44 gün ərzində bir neçə şəhəri və 300-dən çox yaşayış məntəqəsini azad edib.

Rusiyanın vasitəçiliyi ilə tərəflər arasında noyabrın 10-da imzalanan bəyanata əsasən hərbi əməliyyatlar dayandırılıb və Ermənistan ordusu işğal altında saxladığı əraziləri tərk etməyə başlayıb.

Qeyd edilir ki, həmin bəyanata uyğun olaraq ermənilər noyabrın 20-də Ağdamı, 25-də Kəlbəcəri, dekabrın 1-də isə Laçın rayonunu tərk ediblər.

❖ ❖ ❖




Malayziyanın BERNAMA Agentliyi Azərbaycan Ordusunun bölmələrinin Laçın rayonuna daxil olması barədə xəbəri yayıb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Azərbaycan Ordusu 28 ildən sonra Laçın rayonuna daxil olub" adlı xəbərdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə istinadla dekabrın 1-də ordumuzun bölmələrinin bu rayona daxil olduğu barədə məlumat verilib.

Müdafiə Nazirliyinin məlumatından gətirilən sitatda deyilir: "Azərbaycan Respublikasının, Rusiya Federasiyasının prezidentləri və Ermənistanın baş naziri arasında imzalanmış üçtərəfli bəyanata əsasən dekabrın 1-də Azərbaycan Ordusunun bölmələri Laçın rayonuna daxil olub".

Xəbərdə keçmiş Sovet İttifaqının iki respublikası arasında ötən əsrin 90-cı illərində baş vermiş silahlı qarşıdurma nəticəsində xarici havadarlarına arxalanan Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik daha yeddi rayonu işğal etməsi barədə məlumat verilir.

Qeyd edilir ki, cari il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı növbəti təxribatlarından sonra Azərbaycan Ordusu əks-hücuma keçib. 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan bir sıra şəhərləri və 300-dək yaşayış məntəqəsini azad edib.

Noyabrın 9-da Rusiyanın vasitəçiliyi ilə tərəflər arasında hərbi əməliyyatların dayandırılması barədə üçtərəfli bəyanat imzalanıb. Vurğulanır ki, bu, Azərbaycanın tam qələbəsi, Ermənistanın isə məğlubiyyəti kimi qiymətləndirilir.

❖ ❖ ❖



Misirin "Masravi" informasiya portalı Azərbaycan Ordusunun Laçına daxil olması haqqında xəbər yayıb. AZƏRTAC xəbər verir ki, portalın xəbərində Azərbaycan Respublikası, Rusiya Federasiyası prezidentləri və Ermənistan Respublikası baş nazirinin noyabrın 10-da imzaladığı üçtərəfli bəyanata əsasən Azərbaycan Ordusunun bölmələrinin dekabrın 1-də Laçın rayonuna daxil olması qeyd olunur.

Bildirilir ki, sentyabrın 27-də başlayan və 44 gün davam edən döyüşlərdə böyük Qələbə qazanan Azərbaycan Silahlı Qüvvələri 27 ildən çoxdur Ermənistanın işğalı altında olan Laçına daxil olub. Xəbərdə vurğulanır ki, uzun illər ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən uğursuz olub. Torpaqlarının işğalı faktı ilə barışmayan Azərbaycan beynəlxalq hüquq normaları və BMT-nin qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa edib.

❖ ❖ ❖




İspaniyanın böyük oxucu kütləsinə malik "Patrimonio Actual" internet portalında Azərbaycanın noyabrın 25-də işğaldan azad edilən Kəlbəcər rayonu barədə məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, yazıda Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətinə istinad olunur. Bildirilir ki, Kəlbəcər Azərbaycanın qədim torpağıdır və ərazisinə görə Azərbaycan Respublikasının ən böyük rayonlarından biridir.

Xüsusi olaraq vurğulanır ki, Kəlbəcərdəki tarixi abidələr - həm məscidlər, həm kilsələr Azərbaycanın böyük sərvətidir.

Diqqətə çatdırılır ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasına məxsusdur və bu fakt öz təsdiqini tarixi sənədlərdə tapıb.

Eyni zamanda qeyd olunur ki, erməni "tarixçiləri" qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər.

Prezident İlham Əliyevin çıxışına istinadən bildirilir ki, Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq Ermənistanın başlıca məqsədi idi, lakin Azərbaycan Ermənistanın bu məkrli planının qarşısını aldı. Azərbaycanda qədim Qafqaz Albaniyanın tarixinin, mədəni irsinin öyrənilməsi və tədqiqi üçün kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır.

❖ ❖ ❖



Türkiyənin Anadolu Agentliyi Azərbaycanın işğaldan azad edilmiş Füzuli rayonu haqqında reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, "Qarabağın məşhur memarı Qarabağinin Füzulidəki məscidindən sadəcə minarə qalıb" sərlövhəli reportajda təcavüzkar Ermənistanın işğalçılıq siyasətinin əsl mahiyyəti, erməni vandalizminin iç üzü oxuculara çatdırılır.

Bildirilir ki, Ermənistanın təcavüzkar siyasətinin əsl mahiyyəti Füzulidəki real mənzərə ilə özünü təsdiq edir. Füzulinin işğal edilmiş bütün yerlərində soyqırımı həyata keçirilib. Evlər dağıdılıb, talan olunub, məscid və qəbiristanlıqlar, tarixi və mədəni abidələr məqsədli şəkildə məhv edilib. Qarabağın və Azərbaycan memarlığının görkəmli simalarından biri olan Kərbəlayi Səfixan Qarabağinin inşa etdirdiyi Hacı Əli Əkbər Məscidi də şəhərin bir çox memarlıq abidəsi kimi ermənilər tərəfindən dağıdılıb. Onun yalnız dağılmış minarə və sütunları qalıb.

Reportajda qeyd edilir ki, indi Azərbaycan bu əraziləri özünə qaytarıb, öz bayrağını ucaldıb.

Reportajda Füzuli rayonu haqqında ətraflı məlumat verilib.

❖ ❖ ❖



İtaliyanın Kampobasso əyalətinin Sepino və San Culiano del Sannio bələdiyyələri Ermənistanın Azərbaycana qarşı təcavüzünü, etnik təmizləmə, soyqırımı siyasətini pisləyən, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirən sənədlər qəbul ediblər.

AZƏRTAC xəbər verir ki, sənədlərdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz və etnik təmizləmə siyasəti nəticəsində Dağlıq Qarabağ və ətraf 7 rayon da daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğu, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü, azərbaycanlılara qarşı müharibə cinayətləri və Xocalı soyqırımının törədildiyi bildirilir.

BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının münaqişə ilə bağlı qətnamələrinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək verərək, Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş həmin ərazilərdən dərhal çıxarılmasını tələb etdiyi vurğulanır.

Avropa İnsan Hüquqları Məhkəməsinin 2015-ci il tarixli "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarında da Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının Ermənistan tərəfindən işğal edildiyinin təsdiqləndiyi bildirilir.

Sənədlərdə, həmçinin İtaliyanın davamlı olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə diqqət çəkilir. Bu xüsusda Azərbaycan Prezidentinin cari ilin fevralında İtaliyaya dövlət səfəri zamanı imzalanmış "İtaliya Respublikası ilə Azərbaycan Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"yə istinad edilir.

Münaqişə ilə bağlı mövcud hüquqi əsaslara və 30 ilə yaxındır ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində aparılan danışıqlara baxmayaraq, Ermənistanın destruktiv siyasəti nəticəsində danışıqların bloklandığı, Azərbaycan xalqının böyük ədalətsizliklə üzləşdiyi və 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün öz yurd-yuvalarına qayıda, ailə üzvlərinin məzarlarını belə ziyarət edə bilmədikləri vurğulanır.

Sənədlərdə sentyabrın 27-dən etibarən Ermənistanın yeni hərbi təcavüzü zamanı qəsdən mülki obyektləri, mülki şəxsləri hədəfə alaraq Gəncə və Bərdə şəhərlərini bombalaması pislənilir. Bu xüsusda Gəncə və Bərdə şəhərlərinin sakinləri, habelə bütünlükdə Azərbaycan xalqı ilə həmrəylik ifadə edilir.

Sənədlərdə aidiyyəti bələdiyyələrin daim beynəlxalq hüququn norma və prinsiplərini dəstəklədiyi, bu xüsusda Ermənistanın təcavüz siyasətini pislədiyi, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmalı olduğu, BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının münaqişə ilə bağlı müvafiq qətnamələrinin dərhal yerinə yetirilməli, eləcə də azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaq hüququnun təmin edilməli olduğu vurğulanır.

❖ ❖ ❖



Ukrayna birmənalı olaraq Fransa Senatının bu cür qanunazidd hərəkətlərini pisləyir, hərçənd bu qətnamə tövsiyə xarakteri də daşıyır.

Bu barədə AZƏRTAC-a eksklüziv müsahibəsində Ukrayna Politoloqlar Assosiasiyanın eksperti Rinat Kovbasyuk bildirib.

Ekspert sual edir: belə adlandırılan "Arsax"ın dırnaqarası müstəqilliyi hətta Ermənistan tərəfindən tanınmadığı halda niyə Fransa onu tanımağa cəhd göstərir?

Rinat Kovbasyuk deyib: "Mənə elə gəlir ki, dünya alt-üst olub və hər şey nə isə həddini aşıb. Fikrimcə, yəqin ki, Fransa heç bir qondarma "Arsax"ı tanımayacaq, lakin beynəlxalq hüququ pozmaq üçün onların dəqiq siqnal vermələri bəllidir. Azərbaycana mənsub olan ərazilər üçün həyəcan keçirməzdən əvvəl mən fransızlara Korsikanın müstəqilliyini tanımaqları barədə düşünməyi, yaxud da əgər ispanlar basklara sərbəstlik verməyə tələsmirlərsə, o halda etnik ərazini basklara verməyi təklif edərdim. Hələ bretonlar, Fransa Qvianası və Fransa Polineziyası da var. Bəlkə yerli əhali arasında "cavabsız qalan fəryadlara" qulaq asmaq vaxtıdır? Suveren Azərbaycanın beynəlxalq birlik tərəfindən rəsmi şəkildə tanınmış sərhədlərini kobud şəkildə pozmağa cəhd göstərmək əvəzinə, bəlkə özünün keçmiş müstəmləkələrini azadlığa buraxmaq zamanıdır? Əgər hər bir dövlət buna əsas olmadan digər dövlətin suveren ərazisinin bir hissəsini tanıyarsa, o halda biz haraya gedib çıxarıq və nə əldə etmiş olarıq!".

Onun sözlərinə görə, ATƏT-in Minsk qrupu bu münaqişəni həll etməyə cəhd də göstərməyib və indi, böyük dövlətlərin 30 il ərzində edə bilmədiklərini Azərbaycan əsgərinin bir ay ərzində həll etdiyi bir vaxtda münaqişənin moderatorlarından biri və eyni zamanda, Minsk qrupunun həmsədri olan ölkənin birdən-birə ermənilərin tərəfini tutması qəbuledilməzdir. Axı hakim münaqişənin iştirakçısı ola bilməz, onun vəzifəsi tərəflərdən birinə kömək etmək yox, münaqişəni çözməkdir.

Ukraynalı ekspert sonda deyib: "Axı indi təkcə Bakı və Parisin münasibətləri deyil, Fransanın özünün beynəlxalq nüfuzu da təhlükə altındadır. Belə çıxır ki, fransalı diplomatlar 30 il ərzində guya bu münaqişəni həll etməyə cəhd göstərdiklərini deməklə beynəlxalq birliyi aldadıblar, lakin indi məlum oldu ki, onların yeganə variantı erməni separatçılarını tanımaqdan ibarət imiş.

Dostlar, sizə elə gəlmirmi ki, indən belə "Fransaya aid" sözü yaxşı keyfiyyət və misilsiz nüfuz simvolu olmayacaq? Axı məlumdur ki, nüfuzu uzun illər ərzində qazanmaq lazımdır, onu itirmək isə çox asandır. Beləliklə, bir daha düşünmək Fransa XİN üçün pis olmazdı!"

❖ ❖ ❖




"Nəhayət, döyüşlər dayandı. Müharibə ilə bağlı söz-söhbət isə tonunu dəyişsə də, davam edir. Bu gün medianın diqqəti indiyədək erməni silahlı qüvvələrinin nəzarəti altında olmuş ərazilərdəki kilsələrin, xristian məbədlərinin taleyinə yönəlib". AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycandakı aşkenazilərin baş ravvini Şneor Seqalın İsveçrənin ən aparıcı informasiya resursu olan "Tribune de Geneve" portalında dərc olunmuş "Azərbaycanda xristian mədəni soyqırımı qorxusu əsassızdır" adlı məqaləsində yer alıb.

Müəllif Azərbaycandakı tolerantlıqdan və çoxmədəniyyətlilikdən bəhs edərək, ölkədə müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin birgə mehriban yaşadığını vurğulayır. Bildirir ki, işğal altında olmuş torpaqların Azərbaycana qaytarılmasından söhbət gedəndə çoxları bu ərazilərdəki xristian abidələrinin məhv olacağından qorxurdu. Bəziləri tələm-tələsik həmin ərazilərdəki erməniləri kilsələrdən xaçı çıxarmağa məcbur etdilər. Hətta "Bloomberg"ə müsahibəsində bir erməni deyib ki, "sonda müsəlmanlara qalmaqdansa evlərimizi partlatmağa və ya yandırmağa üstünlük veririk".

Şneor Seqal yazır: "Bu qorxu mənə təsir etdi. Çünki müsəlman ölkəsi olan Azərbaycanda dini lider olaraq, eləcə də şəxsi təcrübəmə əsaslanaraq bu hissi anlamaqda çətinlik çəkirəm. Həmin qorxan insanın indiyə qədər hər hansı bir azərbaycanlı ilə rastlaşıb-rastlaşmadığını düşünməyə başladım. Mənim üçün mədəniyyətlərin və dinlərin qovuşuğunda yerləşən Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin birgəyaşayışı, qorunması baxımından çox zəngin bir ölkədir, cənnət məkandır".

Baş ravvin yəhudi təcrübəsini nümunə gətirərək, bir vaxtlar bütün Qafqazda geniş yayılmış, sonradan yalnız bu regionda məhdud sayda yaşayan dağ yəhudilərinin təcrübəsini qeyd edir. Bildirir ki, son onilliklərdəki müharibələr zamanı dünyanın digər ölkələrindən bir çox yəhudilər qaçmaq məcburiyyətində qalsalar da, hücumlar, qətllər və adam oğruluğu hədəfinə çevrilsələr də, Azərbaycanda onlar tərəqqi edən bir icma olaraq qalırlar. Təxminən 15 min dağ yəhudisi ümumilikdə 25 min nəfərlə Azərbaycanın ən böyük yəhudi icmasını təşkil edir.

"Azərbaycanda üç fərqli yəhudi qrupu var: dağ yəhudiləri, gürcü yəhudiləri və baş ravvini olduğum askenaz yəhudiləri. Ancaq Azərbaycan elə təkcə bu xalq üçün vətən deyil. Azərbaycan əhalisi sünni və şiə müsəlmanlarından, xristianlığın müxtəlif qollarından ibarətdir. Hazırda azı 30 min erməni Azərbaycanı öz vətəni hesab edir", - deyə məqalədə qeyd edilir.

Məqalədə Roma papaları II İohan Pavelin və Fransiskin Azərbaycana səfərlərindən, Bakıda Katolik Kilsəsinin tikilməsində də bəhs olunur. Həmçinin qeyd edilir ki, Bakıda sinaqoqlar, kilsələr və məscidlər küçələrdə yan-yana düzülüb və çox yaxşı vəziyyətdə saxlanılır. Bunların qorunub saxlanması Azərbaycan üçün vacibdir.

Xalq həm də mədəniyyət və tarixdir. Azərbaycanda bərabər şəkildə yaşayan digər dinlərin nümayəndələri ilə mütəmadi görüşmək və onlarla əməkdaşlıq etmək təbii haldır. Heç bir din, nə qədər kiçik olsa da, cəmiyyətdən kənarda qalmır. 2002-ci ildə Papa II İohan Pavelin Bakıya səfərindən sonra hökumət Katolik Kilsəsinin inşası üçün torpaq sahəsi ayırdı. 2016-cı ildə eyni kilsədə ibadət edən Papa Fransisk Azərbaycandakı müsəlmanlar, xristianlar və yəhudilər arasındakı möhkəm əlaqələrə heyran qaldığını bildirib. O deyib ki, bu yaxşı münasibətlər dinc yanaşı yaşamaq və dünyada sülh üçün böyük əhəmiyyət daşıyır.

Şneor Seqal yazır ki, bütün bunlar müxtəlif konfessiyalardan olan insanlar arasında səmimi münasibətlərin davam etdirilməsinin, ümumi rifah üçün qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində davranılmasının mümkün olduğunu göstərir.

Məqalədə vurğulanır ki, dini irsi qoruyub saxlamaq kimi Azərbaycan ənənəsi yalnız onun sərhədləri ilə məhdudlaşmır. Bu missiyanı Azərbaycan mədəniyyətini beynəlxalq miqyasda təbliğ edən Heydər Əliyev Fondunun yerinə yetirdiyi diqqətə çatdırılır, fondun dünya miqyasında xristian abidələrinin bərpasına böyük töhfələr verməsindən söz açılır. Vatikanda Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı barelyefin, Romada Müqəddəs Sebastian katakombalarının, Strasburq katedralının bərpasının bunun bariz nümunəsi olduğu vurğulanır. Heydər Əliyev Fondunun yəhudi təşkilatları ilə birlikdə Azərbaycanda yəhudi məktəblərinin inşasında da iştirak etdiyi bildirilir. Müəllif Azərbaycanın nəzarəti altına keçən ərazilərdə xristian abidələrinin məhv olma qorxusunun olmasından təəssüfləndiyini qeyd edir.

Şneor Seqal Qarabağda müsəlman evlərinin və qəbiristanlıqlarının erməni işğalı altında qalaraq tamamilə dağıdıldığını oxuyanda çox kədərləndiyini, bir məscidin təhqir olunması ilə müsəlman dünyasını qəzəbləndirən dəhşətli hadisəni xatırladığını bildirir.

Sonra müəllif Azərbaycan Prezidentinin ölkədəki xristian məbədlərinin qorunacağı ilə bağlı fikrini də xatırladır. "Düşünürəm ki, Azərbaycanın tarixi də bu mövzularla bağlı öz sözünü deyir", - deyə o qeyd edir.

❖ ❖ ❖




ABŞ-da çıxan "Post Bulletin" qəzetində Ermənistanın dekabrın 1-dək öz qoşunlarını çıxarmalı olduğu Azərbaycan rayonlarında törətdiyi ekoloji terror və ərazilərin minalanması haqqında məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, "Ermənistan qoşunları torpağı yandıraraq gedirlər" sərlövhəli məqalədə noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən atəşkəs haqqında bəyanatın imzalanması ilə Azərbaycanın Dağlıq Qarabağ regionunda 44 günlük müharibəyə son qoyulduğu vurğulanır.

Həmin bəyanata əsasən, Ermənistan qoşunları dekabrın 1-dək Azərbaycanın Kəlbəcər, Ağdam və Laçın rayonlarından çıxarılmalıdır. Lakin dünyanın bir sıra informasiya agentlikləri ermənilərin "yandırılmış torpaq" siyasətini əks etdirən dəhşətli kadrlar dərc ediblər. Ermənilər öz qoşunlarını bu ərazilərdən çıxarmazdan əvvəl orada bərpa işlərinin başlanmasını və azərbaycanlı məcburi köçkünlərin öz əzəli torpaqlarına qayıtmalarını ləngitmək məqsədilə bütün evləri yandırıb, elektrik xətlərinin dirəklərini uçurub, meşələri qırıb, ev heyvanlarını kəsib, onların içalatını ətrafa tullayıblar ki, virus xəstəlikləri yayılsın. Bütün bunlar ekoloji terrorun tərkib hissələridir.

Belə məlumatlar daxil olur ki, erməni hərbçiləri bu üç rayona qayıdacaq azərbaycanlı məcburi köçkünləri məhv etmək məqsədilə həmin əraziyə piyadalar əleyhinə minlərlə mina basdırıblar.

Bu məqalə ABŞ Azərbaycanlılar Şəbəkəsi tərəfindən Amerika ictimaiyyətini erməni təcavüzü barədə məlumatlandırmaq üçün həyata keçirilən kampaniya çərçivəsində dərc edilib.

❖ ❖ ❖




Kolumbiyanın nüfuzlu "NTN24" televiziya kanalının "El mundo a esta hora" verilişində Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanmış bəyanata dair reportaj, bu ölkədəki səfirimiz Məmməd Talıbovun mövzu ilə əlaqədar müsahibəsi yayımlanıb.

Diplomat müsahibədə ölkəmizin beynəlxalq ictimaiyyət tərəfindən tanınan Dağlıq Qarabağ bölgəsi və ətraf rayonların 30 ilə yaxın Ermənistan tərəfindən hərbi işğalda saxlanıldığını və 1 milyon azərbaycanlının etnik təmizləməyə məruz qalaraq öz yurdlarından qovulduğunu deyib. Səfir münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamələrə də 27 ildir işğalçı dövlət tərəfindən əməl edilmədiyini bildirib.

Əldə olunan razılaşmanın Ermənistan tərəfində olan narazılıq fonunda uğurlu olmasının mümkünlüyü ilə bağlı suala cavabında diplomat yaranmış durumun Ermənistan hökumətinin təqsiri olduğunu, BMT qətnamələrinin işğal olunmuş ərazilərin boşaldılmasını aydın şəkildə tələb etdiyi halda bu ölkənin hərbi-siyasi rəhbərliyinin illərdir işğalın nəticələrini gücləndirmək siyasəti güddüyünü, öz xalqını aldadaraq onu barışığa hazırlamaq yerinə işğalın nəticələrini qoruyub saxlayacağına inandırdığını qeyd edib.

İmzalanan bəyanatın pozulması və hərbi əməliyyatların yenidən başlaması ehtimalı ilə bağlı suala münasibətdə diplomat Ermənistanın hərbi əməliyyatlar ərzində üç dəfə razılaşdırılmış humanitar atəşkəs rejimini dərhal pozaraq münaqişə zonasından kənarda yerləşən şəhərləri atəşə tutduğunu, bu zaman 94 nəfər mülki sakinimizin ölümünə, 400-dən çox insanın yaralanmasına səbəb olduğunu, habelə Ermənistanın ASALA, Daşnaksütyun kimi terrorçu təşkilatlara sahib olduğunu, bu baxımdan qarşı tərəfdən təxribat və terror aktları təhlükəsinin diqqətdə saxlanıldığını, hazırda isə Rusiya və Türkiyənin də atəşkəs rejiminə və bəyanatın şərtlərinə əməl edilməsinə nəzarət etdiyini nəzərə alaraq, sülhün davamlı olacağına və Ermənistanın öz ərazi iddialarından və təcavüzkar siyasətindən əl çəkərək razılaşmanın tələblərinə riayət edəcəyinə ümidvar olduğumuzu bildirib. Qeyd edib ki, bundan sonra Ermənistan qonşu dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etməli, erməni xalqı da qonşu xalqlarla barışıq içində yaşamağı öyrənməlidir.

İşğaldan azad edilmiş ərazilərin ermənilər tərəfindən tamamilə məhv edildiyini deyən səfir Azərbaycan hökumətinin bölgəyə sərmayə yatıracağı və burada həyat üçün zəruri şəraiti yaradacağını, sonra isə son 30 il ərzində qaçqın və məcburi köçkün vəziyyətində yaşayan 1 milyona yaxın soydaşımızın öz yurdlarına qayıtmasının nəzərdə tutulduğunu söyləyib.

Reportajda münaqişənin tarixi, son hərbi əməliyyatların nəticələri və atəşkəs bəyanatının şərtləri haqda məlumat verilib və hazırda ermənilərin işğal olunmuş ərazilərimizi tərk edərkən ətraf mühit və infrastruktura zərər yetirdiyini əks etdirən kadrlar nümayiş etdirilib.

# İtkin düşmüş hesab olunan hərbi qulluqçularımızın taleyinin müəyyənləşdirilməsi üçün BQXK və Rusiya sülhməramlılarının komandanlığı ilə təmaslar davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin noyabrın 10-da imzaladıqları üçtərəfli Bəyanatdan irəli gələn vəzifələrdən biri humanitar məqsədlərlə əsir və girovların, cəsədlərin dəyişdirilməsinin təmin olunmasıdır.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərinə və humanizm prinsiplərinə sadiqdir. Ermənistandan fərqli olaraq, Azərbaycan Ordusuna təslim olmuş Ermənistan hərbçiləri və döyüş bölgəsindən təxliyə olunmuş mülki şəxslər Cenevrə konvensiyalarının tələblərinə əsasən, dərhal döyüş bölgəsindən çıxarılaraq internə edilmiş, saxlanma şəraiti, onlarla ləyaqətli davranış, qida, su təminatı və yaralıların müalicə hüquqları tam təmin olunub.




Azərbaycan tərəfi əsir düşmüş erməni hərbçiləri barədə məlumatları müntəzəm qaydada Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) və Rusiya Federasiyası sülhməramlı qüvvələrinin komandanlığına təqdim etmiş, BQXK nümayəndələrinin onlara baş çəkmələrinə hərtərəfli şərait yaratmış, bəzi əsirlərin öz valideynləri ilə telefon əlaqəsi saxlamalarını təşkil edib.

Erməni sosial media resurslarında məqsədyönlü şəkildə, guya Azərbaycan Respublikasının qələbə münasibətilə keçirəcəyi hərbi paradda erməni əsirlərinin nümayiş etdiriləcəyi, onlarla qeyri-insani rəftar edilməsi ilə bağlı yalan xəbərlər yayılmaqdadır. Əsassız və həqiqətəuyğun olmayan belə məlumatları qəti şəkildə rədd edirik. Bildiririk ki, hərbi əsirləri nümayiş etdirmək, onları aşağılamaq Azərbaycan xalqına və müzəffər ordumuza xas keyfiyyət deyil.

Ermənistan beynəlxalq humanitar hüquq normalarının, insan hüquqlarının, həmçinin özünün də qoşulduğu Cenevrə konvensiyalarının öhdəliklərinə məhəl qoymayaraq Birinci Qarabağ müharibəsində olduğu kimi azərbaycanlı əsirləri beynəlxalq təşkilatlardan gizlətmək yolunu tutur, onlar haqqında vaxtında məlumat vermir, həyatlarına təhlükəli qaydada qeyri-insani rəftar etməkdən belə çəkinmir. Bununla bağlı erməni hərbçilərinin özlərinin qeydə aldıqları təkzibolunmaz videomateriallar və fotolar da mövcuddur.

"Eyni zamanda, erməni hərbçilərinin əsir düşmələrinin əsas səbəbinin Ermənistanın yeritdiyi təcavüz və işğalçılıq siyasəti olduğunu bir daha vurğulamaqla erməni analarına müraciət edərək, övladlarının qaytarılması ilə bağlı problemin başlıca günahkarının Ermənistan rəhbərliyinin nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe olduğunu bildiririk.

Azərbaycan Respublikası "hamının hamıya" prinsipi ilə bütün əsir və girovların qarşılıqlı şəkildə dəyişdirilməsinin tərəfdarıdır.

İtkin düşmüş hesab olunan hərbi qulluqçularımızın taleyinin müəyyənləşdirilməsi üçün BQXK və Rusiya Federasiyası sülhməramlı qüvvələrinin komandanlığı ilə təmaslar davam etdirilir.

Vətəndaşların müraciət etmələri üçün Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının "www.human.gov.az" rəsmi internet səhifəsi, (+994 12) 405-71-61 telefon əlaqə və (+994 12) 8161 "qaynar xətt" nömrələri fəaliyyət göstərir", - deyə Dövlət Komissiyasının məlumatında qeyd olunub.

# Gəncə məktəblisi informatika fənni üzrə beynəlxalq yarışda bürünc medal qazandı

## "Azercell"in dəstəyilə hazırlıq keçən Azərbaycan komandası uğurlu nəticələr nümayiş etdirir

Bolqarıstanın Şumen vilayətində informatika fənni üzrə 12-ci Beynəlxalq payız turniri baş tutub. Onlayn formatda keçirilən yarışda 17 ölkədən 403 iştirakçı öz biliyini sınayıb. Fəxrlə qeyd edək ki, artıq ikinci dəfədir sözügedən yarışda iştirak edən məktəblilərimiz uğurlu nəticə əldə edirlər. Belə ki, "Azercell"in dəstəyilə turnirə hazırlaşan Gəncə şəhəri, M. Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin XI sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıb!

Xatırladaq ki, Əziz Hüseynov iki ay öncə Sinqapurda keçirilən 32-ci Beynəlxalq İnformatika Olimpiadasında, həm də İndoneziyada təşkil olunan Asiya Pasifik İnformatika Olimpiadasında da bürünc medal əldə edib.




"Azercell Telekom" 2017-ci ildən etibarən informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin fəaliyyətinə dəstək verir. İndiyədək mərkəzdə keçirilən məşğələlərə Azərbaycanın müxtəlif bölgələrindən və paytaxt məktəblərindən 300-dən çox şagird cəlb edilib. Məqsəd - istedadlı şagirdlərin aşkar edilməsi, Azərbaycan məktəblilərinin iştirak etdikləri beynəlxalq fənn olimpiadalarında nailiyyətlərin artırılmasıdır. Burada yerli və xarici ali məktəblərin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının tanınmış alimləri və qabaqcıl müəllimləri 5 fənn üzrə hazırlıq keçirlər. Mərkəzdə məşğələ keçən Azərbaycan məktəbliləri hər il 15-ə yaxın müxtəlif beynəlxalq olimpiada və müsabiqədə iştirak edirlər.

"Azercell" şirkəti daim ölkəmizdə informasiya texnologiyaları sahəsində təhsil, yüksəkixtisaslı kadrların yetişdirilməsi məqsədilə təşkil edilən layihələrə dəstək olur. Şirkət ötən il Bakıda keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasında istedadların Rəqəmsal Sponsoru qismində çıxış edib. Ölkənin lider mobil operatoru "Azercell" informatika sahəsi üzrə istedadlı şagirdlərin aşkar edilməsi, onların öz elmi potensiallarını inkişaf etdirməsi üçün dəstəklənməsi istiqamətində fəaliyyətini gələcəkdə də davam etdirəcək.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kargüzarlıq işlərinin həyata keçirilməsi məqsədilə qeyd olunan nümunələrə və saya uyğun olaraq ştampların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 04 dekabr 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı şəhəri 4 saylı Bakı DOST Mərkəzinin əsaslı təmir işlərinin satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.`

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 07 dekabr 2020-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 08 dekabr 2020-ci il saat 11:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən 14 avqust 2020-ci il tarixdə elan edilmiş **Müxtəlif növ boyaların və fırçaların satın alınması** üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"Laric Chemical" MMC** tenderin qalibi elan edilmişdir.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil **551 316,12 (beş yüz əlli bir min üç yüz on altı manat 12 qəpik) AZN** məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərbaycan İnvestisiya Holdinqi" Publik Hüquqi Şəxs xidməti avtomobilin satın alınması üzrə təkliflər sorğusu həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 07 dekabr 2020-ci il saat 16:00-a qədər AZ1005, Bakı şəhəri, Azərbaycan prospekti, 6 ünvanına (əlaqələndirici şəxs: Vüqar İbrahimov, telefon: (012) 599-87-80) müraciət edə bilərlər.

İddiaçıların təklif zərfləri 08 dekabr 2020-ci il saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"COVID-19" pandemiyası səbəbindən yaranmış vəziyyətlə əlaqədar iddiaçıların tender təkliflərinin gecikdirilməsi səbəbindən, Nizami rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən 02.11.2020-ci il tarixdə elan edilmiş "Nəqliyyat və xüsusi texnikaların satın alınması" üzrə tender təkliflərinin vaxtı 3 bank günü müddətinə uzadılması qərara alınmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Ölkə ərazisində yayılmış "COVID-19" pandemiyası ilə əlaqədar iddiaçıların tender təkliflərinin gecikdirilməsi səbəbindən, Bakı Şəhər Fəvvarələrinin İstismarı İdarəsi tərəfindən 30.10.2020-ci il tarixdə elan edilmiş "Nəqliyyat və xüsusi texnikaların satın alınması" üzrə tender təkliflərinin vaxtı 4 bank günü müddətinə uzadılması qərara alınmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi DİN BDYPİ-nin "Siqnal İLİ" İdarəsinin istehsalat sahəsi üçün avadanlıqların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (+99412)5908160 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 02.12.2020-ci il saat 10:00-dan 05.12.2020-ci il saat 10:00-dək qəbul olunur.

**Ünvan: Xırdalan, Binəqədi şosesi, 4**
**Telefon nömrəsi: (+99412)5908160**
**E-mail: itts703@rambler.ru**

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fondun mövcud kredit portfeli üzrə kredit faizlərinin və zəmanət verilmiş kreditlərin və faizlərinin subsidiyalaşdırılmasının uçotunun təşkili məqsədi ilə proqram təminatının yaradılması xidmətlərinin satın alınması üzrə *kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 04 dekabr 2020-ci il saat 12:00-a qədər qəbul olunur.

Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Taleh Əliyevə müraciət edə bilərlər.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M. Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 310 23 02**
**Fax: (012) 4323717 e-mail: info@edf.gov.az**

*Tender komissiyası*

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi *açıq tender elan edir*

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi üçün ISO beynəlxalq standartları üzrə sertifikatların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı : LOT üzrə 100 (yüz) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: "Azərbaycan Beynəlxalq Bankı" ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 21.12.2020-ci il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 29.12.2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 30.12.2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Ağcabədi rayonu İmanqulubəyli kənd tam orta məktəbinin əsaslı təmiri işlərinin satın alınması" üzrə 23 noyabr 2020-ci il tarixdə keçirilmiş elektron açıq tenderdə "SMTT" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - “Aztelekom” MMC tərəfindən tələb olunan “Aztelekom” MMC-nin inzibati binası və region Mərkəzi EATS-nin əsas transmissya avadanlıqlarını enerji ilə təmin edən 380/48V mövcud düzləndirici qurğuların elektron ehtiyat hissələrinin satın alınması

**İştirak haqqı: 100 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **“ASAN ödəniş” sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BIK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla 21 dekabr 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 29 dekabr 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 30 dekabr 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qəbələ rayonunda yerləşən Uşaq Bərpa Mərkəzinə xarici kommunikasiya xətlərinin çəkilməsi işlərinin satın alınması üçün keçirilən açıq tenderdə “Avalon-12” QSC qalib olmuşdur.

Qalib təşkilatla satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərişıq”” ASC tərəfindən 23 noyabr 2020-ci ildə Bakı RETSİ ərazisində enerji təchizatı şəbəkəsinə qoşulma ilə bağlı daxil olan, həmçinin Dünya Bankının “Doing Business” hesabatında “Azərişıq” ASC-nin reytinqinin qiymətləndirməsi zamanı nəzərə alınan müraciətlərin icra müddətinə 2 (iki) aylıq nəzarət edilməsi xidmətinin satın alınması üzrə kotirovka sorğusu üsulu ilə keçirilmiş tender müsabiqəsində Tender komissiyasının qərarına əsasən “UNİ Energy services” MMC şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla ƏDV daxil 49 206,00 AZN (qırx doqquz min iki yüz altı min manat) məbləğində müvafiq xidmət müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 13 noyabr 2020-ci ildə keçirilmiş “Bakı Metropoliteni” QSC üçün Metal paltar dolabının satın alınması üzrə açıq tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.2. bəndinə əsasən tender təklifləri tenderin Əsas şərtlər toplusuna uyğun olmadığı səbəbindən ləğv edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin “DOST İş Mərkəzi” MMC 2020-ci il üçün kotirovka sorğusu elan edir

Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunması:
- İnventarların satın alınması üzrə.

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 04 dekabr 2020-ci il saat 13:00-dək qəbul olunur.

Kotirovka sorğusuna tələb olunan sənədlər:
- malgöndərənin (podratçının) kotirovka təklifi (ƏLAVƏ 1);
- malların (işlərin və xidmətlərin) qiymət cədvəli (ƏLAVƏ 2);
- qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır) (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- iddiaçının tam adı, ünvanı, hüquqi statusunu müəyyən edən sənəd, qeydiyyatdan keçdiyi ölkə (Notarial təsdiq ilə birlikdə) və bank rekvizitləri (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. Arayış müsabiqənin elan edildiyi aydan əvvəlki dövrü əhatə etməlidir (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti. Arayış müsabiqənin elan edildiyi aydan əvvəlki dövrü əhatə etməlidir (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması. Arayış müsabiqənin elan edildiyi aydan əvvəlki dövrü əhatə etməlidir (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- iddiaçının ixtisaslı işçi heyəti barədə məlumatlar (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- bənzər işlərdə təcürbəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (malgöndərən təşkilat tərəfindən hazırlanır).

**Ünvan: AZ1005 Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.Telefon: (+99451) 207-59-12, (+99412) 497-41-70,**

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

# OXUCULARIN NƏZƏRİNƏ “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası başlayıb!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - “Aztelekom” MMC tərəfindən tələb olunan 80 dəst AC-380V / DC 48V Elektrik qida qurğularının satın alınması

**İştirak haqqı: 500 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **“ASAN ödəniş” sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BIK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 21 dekabr 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 29 dekabr 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 30 dekabr 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Amil Novruzov, Raqif Məmmədli və Bəxtiyar Əzizili BDU-nun Jurnalistika fakültəsinin professoru Akif Rüstəmova həyat yoldaşı
**LALƏZAR XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağdamdan Vaqif Həsənov Ağdam rayonu üzrə qazı, Ağdam Cümə məscidinin axundu
**HACI BARAT BAĞIROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ağdamdan Vaqif Həsənov Ağsu Rayon İcra Hakimiyyətinin başçısı
**VAHİD TAĞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ağdamdan Vaqif Həsənov polkovnik
**BABƏK SƏMİDLİNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi məhkəmənin hakimi Vüqar Həsənova atası
**TƏVƏKGÜL HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin kollektivi məhkəmənin baş məsləhətçisi Sevinc Şükürovaya anası
**MƏNSURƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və aparat işçiləri Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədova atası
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərbaycan” qəzetindən Bəxtiyar Əzizili “Safa Holding”in rəhbəri Faiq Seyidova atası
**SADIQ SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ramiz Nəbiyev Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-polkovnik Kərəm Mustafayevə və Mustafayevlər ailəsinə əzizləri
**VAQİF MUSTAFAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Fizika fakültəsinin dekanı, professor
**MƏMMƏDƏLİ RAMAZANOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədova atası
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Safa Holding”in kollektivi şirkətin rəhbəri Faiq Seyidova atası
**SADIQ SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədova atası
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Sumqayıt Şəhər Məhkəməsinin hakimi Azər İsmayılova atası
**İBRAHİM MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aydın Əliyev Elmar və Cavad Qasımovlara anaları
**FƏRİDƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7457
Sifariş 2754
Qiyməti 40 qəpik